

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## İnsanların ümid çırağı



4

№ 153 (6836)

26 avqust 2023-cü il.
Qiymәti 60 qәpik

# Yenidən qurulan və çiçəklənən torpaqlarımız!



2

*Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 25-də Kəlbəcər rayonuna səfər ediblər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 25-də Kəlbəcər rayonunda "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin "Çıraq-1" və "Çıraq-2" Kiçik Su Elektrik stansiyalarının açılışında iştirak edib.*

# İrəvan müharibəyə hazırlaşır?



14

## YAP Həmkarlar İttifaqı Komitəsinin yığıncağı keçirilib



6

## Fermerlər üçün güzəştli kreditlər hansı şərtlərlə təklif olunur?



11

## Günün mübarək, LAÇIN!



8

## "Belçika rəsmisi İrəvanda Fransanın süni peyki kimi davrandı"



13

## Bəşəri musiqimiz: Azərbaycan muğamı



7

**Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 25-də Kəlbəcər rayonuna səfər ediblər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 25-də Kəlbəcər rayonunda "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin "Çıraq-1" və "Çıraq-2" Kiçik Su Elektrik stansiyalarının açılışında iştirak edib.**

# Yenidən qurulan və çiçəklənən torpaqlarımız!



Dövlətimizin başçısına stansiyalarda görülən işlər barədə məlumat verildi. Bildirildi ki, Kəlbəcər rayonunun qərbində Tərtər çayı üzərində yerləşən 8,33 meqavat gücündə "Çıraq-1" və Qaraarxac çayı üzərində 3,6 meqavat gücündə "Çıraq-2" Kiçik Su Elektrik stansiyaları "AzərEnerji" ASC tərəfindən tamamilə yenidən qurulub.

Qeyd edək ki, 2022-ci ilin iyununda Prezident İlham Əliyevin tikinti işlərinin gedişinə baxış keçirdiyi bu elektrik stansiyaları ən müasir avadanlıqla təchiz olunub. Ərazidə iqlim və relyefin sərt olmağına baxmayaraq, tikinti işləri cədvəldən əvvəl başa çatdırılıb.

Burada çayın 50 faiz təminatı nəzərə alınmaqla ekoloji normanın saxlanılması üçün derivasiya boruları subasardan hündür hissədə quraşdırılıb. Həmçinin sel suları nəzərə alınaraq 1750 metr mütləq yüksəklikdə yerləşən idarəolunan baş suqəbuledici qurğu tikilib, eləcə də 7 kilometr uzunluğunda derivasiya boruları yenidən çəkilib.

"Çıraq-1" və "Çıraq-2" stansiyalarının hər biri üçün maşın zalı tikilib, Avropanın aparıcı şirkətlərinin istehsalı olan müasir ekoturbinlər, generatorlar, idarəetmə, rele mühafizəsi və avtomatika panelləri quraşdırılıb. "Çıraq-1" Kiçik Su Elektrik Stansiyasının









ərazisində yeni 110 kV-luq açıq paylayıcı qurğu inşa edilib. 35 kilometr uzunluğunda 35 kV-luq "İstisu" elektrik verilişi xətti yenidən qurularaq yeni yarımstansiyaya qoşulub, optik kabel xətti çəkilib. Bu yarımstansiya "Çıraq-1", "Çıraq-2" və "Soyuqbulaq" Kiçik Su Elektrik stansiyalarında istehsal edilən elektrik enerjisinin ölkənin enerjisisteminə ötürülməsi üçün qovşaq funksiyasını daşıyır. Eynilə 3,6 meqavat gücündə "Çıraq-2" Su Elektrik Stansiyasının da baş suqəbuledici qurğu, 3 kilometr uzunluğunda derivasiya boru xətti, maşın zalı yenidən qurulub. Stansiyada bir ədəd Avropa istehsalı olan yaşıl sertifikatlı müasir ekoturbin, generator, idarəetmə və avtomatika panelləri quraşdırılıb. "Çıraq-1" və "Çıraq-2" stansiyaları enerjisistemə tam inteqrasiya edilməklə məsafədən idarəetməyə imkan verən mərkəzləşdirilmiş SCADA sisteminə qoşulub. Hər iki stansiyada ümumilikdə il ərzində 35 milyon kilovat-saata yaxın elektrik enerjisi istehsal olunacaq. Prezident İlham Əliyev "Çıraq-1" və "Çıraq-2" Kiçik Su Elektrik stansiyalarını işə saldı.

*Ardı Səh. 3*

# Yenidən qurulan və çiçəklənən torpaqlarımız!

Əvvəli-Səh-2

Kəlbəcər rayonunun Zar kəndinin təməli qoyulub. Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev dövlətimizin başçısına və birinci xanıma kənddə görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, Zar kəndində ümumilikdə 855 ailənin məskunlaşması planlaşdırılıb. Yaşayış məntəqəsinin salınması üçün 20 illik perspektiv və həmin müddətdən sonrakı inkişaf nəzərə alınmaqla 243 hektardan çox torpaq sahəsinin ayrılması nəzərdə tutulub. Birinci mərhələdə kəndə 547 ailənin köçürülməsi üçün birmərtəbəli fərdi evlərin inşası planlaşdırılır. Tikiləcək 547 evin 131-i ikiotaqlı, 289-u üçotaqlı, 92-si dördotaqlı, 35-i beşotaqlı olacaq. Burada, həmçinin 528 şagird yerlik məktəb, 100 yerlik uşaq bağçası tikiləcək. Prezident İlham Əliyev Zar kəndinin təməlini qoydu.







Qeyd olundu ki, Zar kəndində əhalinin məşğulluğunun və istirahətinin təmin edilməsi üçün hər cür şərait yaradılacaq, geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək. Burada evlərin və küçələrin işıqlandırılmasında “yaşıl enerji”dən istifadə olunacaq. Dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq, bütün işlər ən yüksək səviyyədə yerinə yetiriləcək.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər rayonunda “İstisu” mineral sudoldurma zavodunun tikintisi və “İstisu” Müalicə-İstirahət Kompleksində görülən işlərlə tanış olublar. Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Kəlbəcər “İstisu” mineral sudoldurma zavodu 1981-ci ildə inşa edilib. Zavod 1991-ci ilin sonlarında fəaliyyətini dayandırıb. Yeni tikiləcək “İstisu” zavodu 7,8 min kvadratmetr ərazini əhatə edəcək. Müəssisədə ikinövbəli əsasda təxminən 100 nəfər işlə təmin olunacaq. Zavodda Almaniya şirkəti tərəfindən təchiz olunan şüşə və plastik qablaşdırma istehsal xətləri fəaliyyət göstərəcək. Şüşə dolum xəttinin nominal gücü saatda 16 min, plastik dolum xəttinin nominal gücü isə saatda 8 min ədəd təşkil edəcək. Aylıq istehsal gücü isə 8 milyon ədədə yaxın olacaq.




“İstisu” Müalicə-İstirahət Kompleksinin layihəsi barədə məlumat verilərkən bildirildi ki, 1927-ci ildə fəaliyyətə başlayan bu sanatoriya keçmiş Azərbaycan SSR-də müttəfiq əhəmiyyətli ikinci böyük kurort hesab edilirdi. Kompleksin ərazisində üç yataq korpusu, bir müalicəvi vanna xidməti binası, bir poliklinika korpusu fəaliyyət göstərirdi. Sovet dönəmində bu kurort-sanatoriya kompleksi ildə 50 min nəfəri qəbul etmək imkanına malik olub. Buraya əsasən həzm sistemi xəstəliklərinin müalicəsi üçün müraciətlər edilirdi.

Bərpa ediləcək “İstisu” Müalicə-İstirahət Kompleksinin ümumi sahəsi 32 min kvadratmetr olacaq. Kompleksdə 145 nömrə, eləcə də 10 kottec yaradılacaq. Dövlətimizin başçısı və birinci xanım “AzərEnerji” Açıq Səhmdar Cəmiyyətinin 5,3 MVA gücündə olan “Soyuqbulaq” Kiçik Su Elektrik Stansiyasının açılışında iştirak ediblər.

“AzərEnerji” ASC-nin prezidenti Baba Rzayev dövlətimizin başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya stansiyada görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Kəlbəcər rayonunun ərazisindən keçən bol sulu Tərtər çayı üzərində yerləşən “Soyuqbulaq” Kiçik Su Elektrik Stansiyası “AzərEnerji” tərəfindən tamamilə yenidən qurulub. Ərazini tərk edən düşmən tərəfindən tamamilə dağıdılan bu stansiyada bütün avadanlıq və yararlı hissələr sökülərək daşınıb, daşınması mümkün olmayan hissələr isə məhv edilib. İşğaldan azad edilən ərazilərin “yaşıl enerji” zonasına çevrilməsi ilə bağlı dövlətimizin başçısının tapşırığına uyğun olaraq, əsasən “AzərEnerji” tərəfindən su elektrik stansiyasının baş suqəbuledici qurğusu, 6 kilometr uzunluğunda derivasiya boru xətti, maşın zalı yenidən qurulub. Stansiyada Avropa istehsalı olan yaşıl sertifikatlı, iki müasir ekoturbin, generatorlar, idarəetmə və avtomatika panelləri quraşdırılıb. Stansiyanın enerjisistemə inteqrasiyası üçün uzunluğu 6 kilometr olan 6 kV-luq kabel xətti çəkilib və eyni zamanda, optik kabel xətti ilə də əlaqələndirilib. Ərazidə fors-major hallar üçün ehtiyat dizel generatoru da quraşdırılıb. Dövlətimizin başçısı “Soyuqbulaq” Kiçik Su Elektrik Stansiyasını işə salıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 25-də Laçın rayonuna səfər ediblər. Prezident İlham Əliyev “AzərEnerji” ASC-nin “Mişni” və “Alxaslı” Kiçik Su Elektrik stansiyalarının açılışlarında iştirak edib. Dövlətimizin başçısı və birinci xanım Laçın Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış olublar. Prezident İlham Əliyev Kəlbəcər–Laçın avtomobil yolunun 38-ci kilometrliyindən 76-cı kilometrliyinədək olan hissəsində həyata keçirilən işlərlə tanış olub.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın şəhərinə yaxın ərazidə ediləcək mehmanxana kompleksinin təməlqoyma mərasimində, Laçın rayonunun sənaye zonasında mebel fabrikinin açılışında iştirak edib, prefabrik modul evlərin istehsalı müəssisəsinin və xırdabuynuzlu heyvanların saxlanılması məntəqəsinin fəaliyyəti ilə tanış olub, “Hoçazfilm” yaradıcılıq studiyasının çəkiliş pavilyonunun, Laçın rayon 2 nömrəli tam orta məktəbin əsaslı təmirdən sonra və “Həkəri Balıq Təsərrüfatı”nın açılışlarında iştirak ediblər.

# İnsanların ümid çırağı





İctimai-siyasi, mədəni həyatda aparıcı qüvvəyə çevrilmək, əməli fəaliyyətilə böyük nüfuza sahib olmaq, örnəyə çevrilmək böyük məsuliyyət və zəhmətin bəhrəsidir. Əlbəttə ki, vətənpərvərlik, vətənə bağlılıq insanı xalqı, milləti üçün böyük amallara xidmət etməyə sövq edir. Azərbaycanın Birinci vitse-prezidenti, Azərbaycanın Birinci xanımı Mehriban xanım Əliyevanın Azərbaycanın ictimai-siyasi, mədəni həyatında müstəsna rola malik olması onun vətənə bağlılığından irəli gəlir. Milyonlarla insanın məhəbbətini qazanan, onların ümid və pənah yerinə çevrilən, ən çətin anlarında yanında olmaq mərhəmətin və xeyirxahlığın ən yüksək nöqtəsidir. Qayğı, ehtiram, alicənablıq, təvazökarlıq kimi keyfiyyətlər insana ucalıq gətirərək, özü də hiss etmədən onu ali dəyərlərin daşıyıcısına çevirir. Sosial müdafiəyə ehtiyacı olan insanların maddi durumunun yaxşılaşdırılması, fiziki cəhətdən zəif, qüsurlu olan uşaqlara, yaşlı və kimsəsiz insanlara maddi və mənəvi dayaq olmaq həssas münasibətdən, qayğıkeş qəlbdən qaynaqlanır. Bu və digər ali dəyərləri ilə insanların doğması tək qəbul etdiyi Mehriban xanım Əliyeva qazandığı nüfuzu ilə Onu sevənlərlə özü arasında mənəvi körpü salıb. Böyük və məsuliyyətli missiyanın daşıyıcısı olmaq yükünü üzərinə götürən Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti Onu həyat missiyasından, məramından uzaq salmır. Genişmiqyaslı layihələri ilə məsuliyyət hissini daha da artırır. Ən çətin anlarda, kədərli, hüznlü günlərdə, eləcə də xalqımızın sevincli, iftixarlı zamanlarında insanların yanında olaraq, onlarla öz fikirlərini bölüşmək əlbəttə ki, Mehriban xanım Əliyevaya ucalıq gətirir. "Sizin MEHRİBAN" ifadəsi də qarşılıqlı bir münasibətdən yaranmışdır. Neçə illərdir ki, ağır və məsuliyyətli yükü çiyinlərinə götürərək yoluna davam edir.

## *Mehriban xanım Əliyeva: "Xeyirxahlıq və saf niyyətlər Yaradanın hər birimizə bəxş etdiyi ən gözəl keyfiyyətlərdir"*





### HƏQİQİ XOŞBƏXTLİYƏ VƏ HARMONİYAYA APARAN YOL

Xeyriyyəçilik və humanizm kimi dəyərlərdən yoğrulmuş fəaliyyət insanlığa, bəşəriyyətə xidmət etmək kimi ali bir dəyərə söykənir. İllərdir ki, yorulmaq bilmədən çalışan və böyük əhəmiyyət kəsb edən, müasir dünyamızın çağırışlarına cavab verən layihələri ilə milyonlarla insanın sevgisini qazanan Azərbaycanın Birinci xanımı Mehriban Əliyeva gördüyü işlərlə mənəvi rahatlıq tapır. Bu fəaliyyət özünün vurğuladığı kimi, sarsılmaz həqiqətlərə söykənir: "Əxlaq və mənəviyyat, insaniyyət və şəfqət, inam və məhəbbət, xeyirxahlıq və saf niyyətlər Yaradanın hər birimizə bəxş etdiyi ən gözəl keyfiyyətlərdir", - deyən Mehriban xanım Əliyeva valideynlərindən əxz etdiyi dəyərləri hər zaman üstün tutaraq, onların öyrətdikləri həqiqətə və mənəviyyata can atmağı özünün həyat məqsədinə çevirib: "Onlar öz varlığı ilə ləyaqət və şərəf hissinin hər şeydən üstün olduğunu aşıladılar. Öyrətdilər ki, alicənablıq və dürüstlük, mənəviyyat və şəfqət, xeyirxah əməllər, inam və məhəbbət – həqiqi xoşbəxtliyə və harmoniyaya aparan yoldur". Bəli, bu yol böyük bir yoldur. İnsanlığa aparan yoldur. Söhbət insan anlamından gedirsə, bu məfhumun arxasında dayanan amillər ən böyük dəyərlərə yol açır.

### "CİNAYƏT TÖRƏTMİŞ İNSANLARA BİR DAHA İMKAN VERMƏLİYİK Kİ, ONLAR AZAD HƏYATA QAYITSINLAR"

O, Milli Məclisin deputatı kimi fəaliyyət göstərdiyi illərdə də əsl peşəkarlıq, siyasi yetkinlik nümunəsi göstərdi. "Siz mənə səs verməklə, sizin və balalarınızın ümidlərinin gerçəkləşməsinə səs vermisiniz" – deyən Mehriban Əliyeva öz fəaliyyəti ilə sübut etdi ki, əzmkarlıq, işləri düzgün qurmaq bacarığı olan yerdə həlli mümkünsüz sayıla biləcək heç bir problem yoxdur.

Mehriban Əliyevanın Milli Məclisin deputatı kimi fəaliyyətində yaddaqalan məqamlardan biri onun ədalət, humanizm və insanpərvərlik ideallarını rəhbər tutaraq genişmiqyaslı amnistiya aktının qəbul edilməsi təşəbbüsü ilə çıxış etməsidir. 2007-ci il 8 mayda Mehriban xanımın hazırladığı "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş amnistiya haqqında" qərar layihəsinin müzakirəsində o öz çıxışında qeyd etmişdir: " səhv etmiş, cinayət törətmiş insanlara bir daha imkan verməliyik ki, onlar azad həyata qayıtsınlar, ailələrinə, yaxınlarına qovuşsunlar, cəmiyyətdə öz yerlərini tapa bilsinlər. Ağır cinayət törətməyən insanları bağışlayaraq, biz həm onları normal həyata qaytarırıq, həm də müstəqil Azərbaycanın humanizm prinsipləri əsasında inkişaf etdiyini nümayiş etdiririk".

Azərbaycan parlamentarizmi tarixində ilk dəfə olaraq Milli Məclisin deputatı tərəfindən irəli sürülmüş və geniş ictimai dəstək almış bu amnistiya aktı böyük mənəvi-əxlaqi və siyasi məzmun daşımışdır. O, bu təşəbbüsü ənənəyə çevirərək 2009 və 2013-cü illərdə də eyni müraciətlə çıxış etmiş və nəticədə 2009-cu ildə 9564, 2013-cü ildə isə təqribən 9000 nəfər azadlığa buraxılmışdır.

### "BU GÜN HEYDƏR ƏLİYEV BİZİMLƏ OLMASA DA, ONUN İDEYALARI YAŞAYIR, NİYYƏTLƏRİ HƏYATA KEÇİRİLİR"

Azərbaycan tarixinə müstəqil dövlət qurucusu kimi daxil olmuş Ulu Öndər Heydər Əliyevin xatirəsinə xalqımızın ehtiramını ifadə etmək arzusundan, onun zəngin mənəvi irsini əks etdirmək, azərbaycançılıq fəlsəfəsinin ölkəmiz üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq zərurətindən irəli gələrək yaradılmış Heydər Əliyev Fondu müxtəlif layihələr həyata keçirərək, cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir. Heydər Əliyev Fondunun prezidenti Azərbaycanın Birinci xanımı, Mehriban Əliyeva hər zaman xalqın yanında olan onun problem və qayğıları ilə maraqlanan və onların çözülməsinə çalışaraq, həqiqətən də, insanların ümid, pənah yeridir. Xeyirxahlıq, haqq-ədalət ünvanıdır.

Ardı Səh. 5

# İnsanların ümid çırağı



Əvvəli-Səh-4

Ulu Öndər Heydər Əliyev ideyalarını davam etdirən Fondun şaxəli fəaliyyəti Azərbaycanın sosial, iqtisadi, mədəni həyatında əks-səda doğuraraq, birmənalı qəbul edilir. Mehriban Əliyeva Ulu Öndər Heydər Əliyev haqqında belə deyir: "O, Vətəninə, müstəqil, çiçəklənən, qüdrətli Azərbaycanda xoşbəxt görmək istədiyi xalqına olan sonsuz sevgisini hər şeydən üstün tuturdu. Bu gün Heydər Əliyev bizimlə olmasa da, onun ideyaları yaşayır, niyyətləri həyata keçirilir. Ən başlıcası onun müqəddəs arzusu reallaşıb".

Hər bir addımı böyük rəğbətlə qarşılanan Fondun humanitar missiyada fəaliyyət proqramlarının həyata keçirilməsi vətəndaşların qayğı və problemlərinin həllində müstəsnadır. Həyata keçirilən bütün layihələr vətəndaşların hərtərəfli qayğı ilə əhatələnməsi, sosial rifahının yüksəldilməsi məqsədini daşıyır. Uşaq bağçalarının, orta məktəblərin, səhiyyə müəssisələrinin təmir və inşası, eləcə də, əqli, fiziki cəhətdən zəif, qüsurlu olan uşaqlara, yaşlı və kimsəsiz insanlara maddi və mənəvi dayaq olması, şəkərli diabet, böyrək çatışmazlığından əziyyət çəkənlərə pulsuz və yüksək səviyyədə yardım və kömək göstərilməsi Heydər Əliyev Fondunun qısa bir zaman məsafəsində gördüyü işlərin uğuru olaraq qəbul edilir.

## "AZƏRBAYCAN - TOLERANTLIĞIN ÜNVANI"

Milli-mənəvi dəyərlərin qorunması və dini ziyarətgahların yenidən qurulması prosesinə fəal surətdə qoşulan Heydər Əliyev Fondunun ölkəmizdə həyata keçirdiyi "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsi çərçivəsində ölkədə bir neçə dini ocağın təmiri və yenidən qurulması həyata keçirilmişdir. Fondun təşəbbüsü ilə Gəncədə Comərd Qəssab və Cavad xan türbələri yüksək səviyyədə bərpa edilmişdir. Bu sırada paytaxtın Buzovna qəsəbəsində "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsi çərçivəsində əsaslı surətdə yenidən qurulan Cümə məscidi də xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan ərazisində, bütövlükdə Cənubi Qafqazda və Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindən olan Şamaxı Cümə məscidində əsaslı təmir və yenidənqurma işləri aparılmış, Qəbələdə isə yeni məscid inşa olunmuşdur.

Bütün dövrlərdə, ictimai-siyasi quruluşdan asılı olmayaraq, ölkəmizdə müxtəlif dillərdə danışan, müxtəlif dinləri təmsil edən insanlar sülh, əmin-amanlıq və qarşılıqlı hörmət şəraitində bir ailə kimi yaşayıblar. Bu gün də belədir. Müasir dünyamızda çoxkonfessiyalı və çoxmillətli Azərbaycan bu ənənələrə sadiqdir və bu, ən böyük sərvətlərdən biridir. Təsadüfi deyildir ki, son illər mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa töhfələrini verir. Müasir dövrümüzdə Heydər Əliyev Fondu, nəinki Azərbaycanın, eləcə də, ümumdünya mədəni irsinin qorunmasına böyük əhəmiyyət verir. Fondun layihələrindən olan "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində Avropada Versal Sarayının memarlıq abidələrinin, kafedral kilsənin vitrajlarının bərpası Azərbaycanda tolerantlığın, dözümlülüyün, dünya mədəniyyətlərinin rəngarəngliyinə hörmətin qədim və möhkəm kökləri olduğunu özündə bir daha ehtiva edir. Azərbaycanın Birinci Xanımı Mehriban Əliyeva Roma şəhərinin ətrafında yerləşən 60-a yaxın katakombaların bərpasında əhəmiyyətli işlərə imza atmışdır. Müqəddəs Marçellinio və Pietro katakombaları xristian aləmi üçün ən mühüm və ən maraqlı abidələrdən biridir və bu addım dinlər və mədəniyyətlərarası dialoqun daha bir parlaq nümunəsi olaraq tarixə yazıldı. Romanın belə nüfuzlu arxeoloji abidəsinin bərpasına töhfəsini verən Heydər Əliyev Fondu tarixi missiyasını həyata keçirmiş oldu. Heydər Əliyev Fondunun Fransanın Orn Departamentinin Santiyi, Fresnay o Sovaj, San-İler la Jerar, Tanvil, Kurjust, Revoyon və Mal yaşayış qəsəbələrində X-XII əsrlərə aid 7 kilsənin bərpasına yardım etməsi də "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində reallığa çevrilib.

Fondun tarixi, mədəniyyət və dini abidələrin qorunub saxlanılması və bərpası istiqamətindəki fəaliyyəti hər kəsə məlumdur. Odur ki, Heydər Əliyev Fondu qədim Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başlayıb. Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçirilir. İşğal illəri ərzində Şuşa şəhərində və Ağdam rayonunda dağıntılara məruz qalmış dini ibadət yerlərinin bərpası üzrə müvafiq işlərə artıq başlanılmışdır.

## AZƏRBAYCANÇILIQ İDEYALARI - GERÇƏKLƏŞƏN İRİMİQYASLI LAYİHƏLƏR

Azərbaycan haqqında həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırmağa önəm verən Heydər Əliyev Fondu tərəfindən həyata keçirilmiş layihələr sırasında "Qarabağ həqiqətləri" bukletlər toplusunun nəşri xüsusi əhəmiyyətə malikdir. "Müharibə və tarixi-mədəniyyət abidələrimiz" kitabında Azərbaycanın işğal olunmuş ərazilərindəki ziyarətgahlar və digər tarixi-mədəniyyət abidələri haqqında ətraflı məlumat verilir. "Qarabağ həqiqətləri" silsiləsinin davamı olaraq 2007-ci ildə Heydər Əliyev Fondu Ermənistanın Azərbaycan mədəniyyətinə, maddi-mənəvi irsimizə qarşı məqsədyönlü şəkildə həyata keçirdiyi vandalizm siyasətindən və onun acı nəticələrindən bəhs edən "Azərbaycana qarşı müharibə: mədəni irsin hədəfə alınması" kitabını ingilis dilində nəşr etdirdi. Kitaba 30 ilə yaxın ermənilər tərəfindən işğal altında qalmış ərazilərimizdəki mədəni sərvətlərimizin siyahısı, xəritələr, habelə Ermənistan ərazisində və işğal altındakı bölgələrimizdəki tarixi və mədəniyyət abidələrimizin əvvəlki və indiki vəziyyətini əks etdirən videomateriallar əlavə olunub. Rus alimi, yazıçı-tarixçi, professor Rudolf İvanovun "Bəyazidin müdafiəsi: həqiqət və yalan", "Əlahəzrətin general - adyutantı. Hüseyn xan Naxçıvanski haqqında dastan", "Sovet İttifaqı adından" kitabları rus dilində nəşr olunub.

Heydər Əliyev Fondu azərbaycançılıq ideyalarının çarçısı olaraq Azərbaycandan kənarda da amalını gerçəkləşdirmək yönümündə irimiqyaslı layihələri ilə çıxış edir. Onun böyük təşəbbüsü ilə müasir dövrümüzdə fondun ABŞ, Rusiya Federasiyası, Rumıniya və Türkiyədə nümayəndəlikləri fəaliyyət göstərir. Sözsüz ki, belə bir dövlətlərdə nümayəndəliklərin yaranması Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında əhəmiyyətlidir. Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xeyriyyəçilik fəaliyyəti, bu Fondun mədəniyyət və səhiyyə sahəsində həyata keçirdiyi irimiqyaslı layihələr, o cümlədən talassemiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı və talassemiyaya tutulmuş uşaqlar üçün ixtisaslaşdırılmış mərkəzin yaradılması və s. onun xeyriyyəçilik əməllərinə söykənir. "Yeniləşən Azərbaycana yeni məktəb" Proqramına uyğun olaraq Azərbaycanın bir sıra rayon və kəndlərində yeni məktəb binalarının inşa, təmir və bərpa olunaraq istifadəyə verilməsi bu görülən işlərin davamı olaraq reallaşır. Belə ki, məktəblər müasir avadanlıqlarla təchiz edilərək, dünya standartlarına uyğun qurulur ki, bu da təhsilin keyfiyyətinə müsbət təsirini göstərməkdədir. Demək olar ki, Azərbaycanın hər bir məkanında təhsil sahəsində aparılan bu dəyişikliklər özünü büruzə verir. Azərbaycanın gənc nəsli biliyə, müasir texnologiyalara, elmə yiyələnərək, dünya təhsil sisteminə inteqrasiya olunur. Bu uğurlu addım Fondun başlıca vəzifəsi olaraq davam etdirilir.



Fondun səhiyyə ocaqlarının bərpa edilməsi və inşası ilə bağlı layihələri də öz nəticəsini vermiş bu gün tibbi müəssisələr dünya standartlarına uyğun inkişaf etmiş ölkələrdən gətirilmiş müasir tibbi avadanlıqlarla təchiz olunmuşdur. Belə ki, Fondun həyata keçirdiyi sosialyönlü layihələr sırasında "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə" və s. layihələri xüsusi olaraq vurğulamaq lazımdır. Paytaxt və regionlarda mütəmadi olaraq qanvermə aksiyaları, ürək çatışmazlığından, dodaq və damaq bitişməzliyi patologiyasından əziyyət çəkən uşaqlar üzərində əməliyyatlar, aztəminatlı ailələrdən olan şəxslərin müayinələri və digər tədbirlər həyata keçirilir. Fond tibb müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və inşasında yaxından iştirak edir. Onu da bildirək ki, səhiyyəyönümlü layihələr sırasında Heydər Əliyev Fondunun fəaliyyətində uşaqlar arasında mövcud olan talassemiya xəstəliyinin qarşısının alınması üçün preventiv tədbirlər, maarifləndirmə işlərinin aparılması, qan testlərinin keçirilməsi, xəstəliyin müalicəsi, sümük iliyinin köçürülməsi ilə bağlı məsələlər də yer alır. Paytaxtımızda inşa olan Talasamiya Mərkəzi Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirildi. Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilən və bu gün həmin xəstəliyə düçar olanların ümid yerinə çevrilən mərkəz Heydər Əliyev Fondunun "Talassemiyasız həyat naminə" proqramı çərçivəsində inşa olunub. Burada quraşdırılan avadanlıqlar müalicənin ən yüksək səviyyədə aparılmasına şərait yaradır.

## SEVİNC VƏ KƏDƏRİ XALQ İLƏ BİRGƏ YAŞADI

Xüsusi olaraq vurğulamaq yerinə düşər ki, Heydər Əliyev Fondu Azərbaycanda koronavirusun geniş yayılmasının qarşısının alınması istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlərə də töhfə olaraq Koronavirusla Mübarizəyə Dəstək Fonduna 500 min manat vəsait köçürdü. Heydər Əliyev Fondu daim himayəsində saxladığı bir sıra müəssisələrə koronavirusla mübarizə sahəsində dəstək göstərdi. Mehriban Əliyevanın tapşırığına əsasən, Fond tərəfindən Bakıda və regionlardakı körpələr və uşaq evlərinə, internat məktəblərinə, pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsinə, Uşaq Psixonevroloji Mərkəzə, eləcə də Bakıdakı və regionlardakı psixonevroloji sosial xidmət müəssisələrinə koronavirusla mübarizə tədbirləri çərçivəsində dezinfeksiyaedici vasitələr, maskalar və digər qoruyucu vasitələrdən ibarət yardımlar ayrıldı. Odur ki, Heydər Əliyev Fondu minlərlə insanın qəlbində bir ümid çırağı yandırıb. Mehriban xanım Əliyevanın mərhəməti, xeyriyyəçiliyi, humanizmi bu münasibətin formalaşmasına səbəb olub.

Azərbaycanın işğaldan azad olunan ərazilərinə Azərbaycan Prezidenti İlham Əliyevlə birgə səfərlərindən tarixi və əzəli torpaqlarımızla bağlı etdiyi paylaşımları hər kəsdə maraq oyadır. Son illərin tarixi gerçəkliklərinə nəzər salsaq görərik ki, O, həqiqətən də xalqla birgə yaşayır. Vətən müharibəsi dövründə bunun bir daha şahidinə çevrildik. Mehriban xanım Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ömürgün yoldaşı olmaqla yanaşı, onun məslək yoldaşı və silahdaşıdır. Hər zaman bərabər addımlayan etibarlı silahdaş. Qarabağ torpaqlarının erməni işğalından azad olunması yolunda 44 günlük müharibədə Mehriban Əliyeva hər qələbə sevincini xalq ilə birgə yaşadı. Şəhid analarının kədərini bir ana kimi yaşadı, şəhid anaların yanında oldu, onlara təsəlli verdi. Qazilərimizə mərhəmət əlini uzatdı. Həssas qəlbi, iradəsi ilə bütün hadisələrə münasibətində onun xalqa sevgisini, məhəbbətini görürük. Azərbaycan həqiqətlərinə laqeyd qalmır.

44 günlük müharibəni Zəfərlə başa vuran Azərbaycanda reallaşacaq layihələrə Mehriban Əliyeva öz töhfəsini verir. Möhtəşəm "Xarı Bülbül" festivalına rəhbərlik etməsi bütün dünyaya səs saldı. 30 ildən sonra "Qarabağ şikəstəsi" Cıdır düzündə səslədirildi.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva dünyanın qlobal çağırışla üz-üzə qaldığı zamanda belə xalqla həmrəylik nümayiş etdirdi və bu gün də belədir. İsti və səmimi münasibətləri Onu insanlara daha da yaxınlaşdırıb. İnsanların pənah yeri, ümid çırağına çevrilib.

***Zümrüd BAYRAMOVA***



# İLHAM ƏLİYEV: ”Azərbaycan indiyə kimi nəyi diktə edibsə, o icra edilib, öhdəliklərdən qaçmaq mümkün deyil”

***Bəli, bu gün qalib lider Prezident Ilham Əliyev irəli sürdüyü şərtlər qəbul edilir. Belə olan halda Ermənistan ağıllarını başlarına yığıb bilməlidirlər ki, Azərbaycan indiyə kimi nəyi diktə edibsə, o icra edilib, öhdəliklərdən qaçmaq mümkün deyil. Şərtlərə əməl etmək lazımdır və həmin şərtlərə əməl etməsə, bu, ona və Ermənistana gələcəkdə çox baha başa gələ bilər. Daha dəqiq desək, "Dəmir Yumruğ"un növbəti zərbəsi ilə qarşılaşacaqlar.***

TƏHLİL

Dövlət İlham Əliyevin söylədiyi kimi, 30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Əksinə, daha da bütövləşdik, daha da mətinləşdik, daha da gücləndik, özümüzü toparladıq və sonunda Zəfər bizim oldu. Belə olan halda bu gün ermənilər anlamalıdırlar ki, sülh onlarını yeganə çıxış yoludur. Və bu gün havadarlarına arxalanaraq ölkəmizi təxribatlara çəkib növbəti müharibə ilə “hədələyən” revanşistlər anlamırlar ki, artıq Azərbaycan bütün gedişlərini kökündən dəyişib və bölgədə baş verən istənilən hadisəyə diqqət yetirir, hər şeyə nəzarət edir. İndi diktəni edən ölkə Azərbaycandır və bölgədə yenidən erməni faşizminin baş qaldırmasına heç vaxt imkan verməz. İstənilən qüvvənin Qarabağda Azərbaycan əsgərinə qarşı edəcəyi təxribat xarakterli əməl cavabsız qalmayacaq. Və bu gün Ali Baş Komandanın bəyanatlarına, sərt xəbərdarlıqlarına əhəmiyyət verməyən ermənilər indi qalib sərkərdənin hər bir fikrini, mesajını diqqətlə izləyir və ona uyğun nəticə çıxarırlar. Yaxşı anlayırlar ki, Prezident İlham Əliyevin dediyi söz imzası qədər keçərlidir. Bu Prezident İlham Əliyevin yürütdüyü diplomatiya nəticəsində müharibənin başa çatmasından sonra yaranan bu reallıqlar siyasi mərkəzlər tərəfindən qəbul edilir. Məhz bunun nəticəsidir ki

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birinə Döyüş bayrağının təqdim olunması mərasimində çıxışı zamanı regionda proseslərin yenə də bizim təkliflərimiz əsasında cərəyan etdiyini diqqətə çatdıraraq müharibədən sonrakı ilk aylarda Ermənistanın havadarlarının köhnə tezisləri qəbul etdirməyə çalışdıqlarını bildirərək deyib: ”Biz isə bunu qətiyyətlə rədd etdik. Bu gün hər kəs görür ki, vaxtilə Qarabağ erməniləri üçün hansısa xüsusi status tələb edən qüvvələr artıq tamamilə fərqli açıqlamalar verirlər. Görürük ki, vaxtilə “Qarabağ Ermənistandır və nöqtə” deyən Ermənistan rəhbərləri indi mənim sözlərimi təkrarlayırlar: “Qarabağ Azərbaycandır!” Yəni, bütün bunlar bizim son iki il yarım ərzində apardığımız siyasətin nəticəsidir.”

Qalib Komandan kimi Azərbaycvn Prezidenti İlham Əliyev hər zaman açıqlamalarında bildirir ki, sülhün qorunması, sabitliyin möhkəmləndirilməsi, dinc birgə yaşayışın təmin edilməsi, barışıq gündəliyinin irəli sürülməsi regionda əməkdaşlığa və iqtisadi inkişafa sərmayə qouluşu üsün real zəmin yaratmış olacaq. Və Ermənistan sülh müqaviləsinin yeganə çıxış yolu olduğun anlayır.

Prezident İlham Əliyev iyulun 22-də Şuşada ”Euronews” televiziyasına müsahibə zamanı ölkə başçımız bildirib ki, 10 noyabrda imzalanan sənəd Bəyanatdır, sülh müqaviləsi deyil. Azərbaycan sülh müqaviləsinin bağlanmasında maraqlı olan tərəfdir. Və Azərbaycan ərazi bütövlüyünü bərpa etdikdən sonra sülhü təşviq edir, çünki regionumuzun sabitliyini, onun davamlı inkişafını istəyirik. Daima irəli getmək, Ermənistanla qonşu ölkə kimi normal yanaşı yaşamaq istəyirik. Etnik mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanın bütün vətəndaşlarının təhlükəsizlik hüquqlarına zəmanət veririk.

## ”QARABAĞDA YAŞAYAN ERMƏNİLƏR BİZİM VƏTƏNDAŞLARIMIZDIR VƏ ONLARIN TALEYİNİ, ONLARIN GƏLƏCƏK HƏYATINI BİZ HƏR HANSI BİR ÖLKƏ İLƏ MÜZAKİRƏ ETMƏK FİKRİNDƏ DEYİLİK, O CÜMLƏDƏN ERMƏNİSTANLA”

Prezident İlham Əliyev Qarabağdakı dinc erməni əhali haqqında da mövqeyini növbəti dəfə bildirib: “Qarabağda yaşayan ermənilər bizim vətəndaşlarımızdır və onların taleyini, onların gələcək həyatını biz hər hansı bir ölkə ilə müzakirə etmək fikrində deyilik, o cümlədən Ermənistanla. Bu, bizim daxili işimizdir və Azərbaycan vətəndaşları hansı hüquqlara malikdirlərsə, ermənilər də o hüquqlara malik olacaqlar. Hər halda, əmin ola bilərlər ki, onların yaşayışı, Azərbaycan cəmiyyətinə inteqrasiya edilmiş yaşayışı indiki yaşayışdan qat-qat yaxşı olacaqdır.”

Dövlətimizin başçısı müsahibəsində açıq şəkildə bəyan edib ki, Qarabağda yaşayan ermənilər üçün Azərbaycan cəmiyyətinə inteqrasiyanın, sadəcə, başqa yolu yoxdur: “Əgər kim hesab edirsə ki, onlara Azərbaycan vətəndaşı kimi yaşamaq lazımdır, fikrimcə, onlar peşman olmayacaqlar. Amma əgər bu, hansı səbəblərdən kiməsə münasib deyilsə, onlar özləri üçün başqa yaşayış yeri seçə bilərlər.”

Bir sözlə, dövlət başçımızın söylədiyi kimi

## “AZƏRBAYCANIN MÖVQEYİ BİRMƏNALIDIR, AÇIQDIR. AZƏRBAYCAN HAQQIN, ƏDALƏTİN TƏRƏFDARIDIR”

İyunun 23-də Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birinə Döyüş bayrağının təqdim olunması mərasimində çıxışı zamanı söylədiyi kimi, bu gün Azərbaycanını mövqeyi birmənalıdır, açıqdır, haqqın, ədalətin tərəfdarıdır və bu gün bizi qisasçılıqda ittiham edənlər qoy gedib güzgüyə baxsınlar: ”Ermənistandan fərqli olaraq onların şəhərlərini “İsgəndər”, “Toçka” və “Elbrus” raketləri ilə dağıtmamışıq. Azərbaycan Ordusu yüksək mənəvi xüsusiyyətlərə malikdir”.

Silahlı Qüvvələrimizin Ali Baş Komandanın əmrlərini tam icra etdiyini və icra edəcəyini bildirən dövlətimizin başçısı bildirib: ”Biz qisas yox, ədalət tələb edirik. Biz tələb edirik ki, haqq-ədalət qorunsun. Biz tələb edirik ki, bizim daxili işlərimizə heç kim müdaxilə etməsin. Biz tələb edirik ki, bütün ölkələr sözdə yox, əməldə bizim ərazi bütövlüyümüzə hörmətlə yanaşsın və belə olan halda, biz də onların ərazi bütövlüyünə hörmətlə yanaşacağıq”.

Bu gün regionda proseslərin yenə də bizim təkliflərimiz əsasında cərəyan etdiyini diqqətə çatdıran Ali Baş Komandan müharibədən sonrakı ilk aylarda Ermənistanın havadarlarının köhnə tezisləri qəbul etdirməyə çalışdıqlarını bildirərək deyib: «Biz isə bunu qətiyyətlə rədd etdik. Bu gün hər kəs görür ki, vaxtilə Qarabağ erməniləri üçün hansısa xüsusi status tələb edən qüvvələr artıq tamamilə fərqli açıqlamalar verirlər. Görürük ki, vaxtilə “Qarabağ Ermənistandır və nöqtə” deyən Ermənistan rəhbərləri indi mənim sözlərimi təkrarlayırlar: “Qarabağ Azərbaycandır!” Yəni, bütün bunlar bizim son iki il yarım ərzində apardığımız siyasətin nəticəsidir”.

Bir sözlə, Prezident İlham Əliyev “Euronews”a verdiyi müsahibə son zamanlarda istər Ermənistan rəhbərliyi, istərsə də Qərb dövlətlərinin nümayəndələri tərəfindən səsləndirilən qeyri-adekvat açıqlamalara tutarlı cavab olub.

***RƏFİQƏ KAMALQIZI***



# YAP Həmkarlar İttifaqı Komitəsinin yığıncağı keçirilib



**Avqustun 25-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Həmkarlar İttifaqı Komitəsinin yığıncağı keçirilib. Yığıncaqda YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqının sədri Hikmət Osmanov iştirak ediblər.**

Əvvəlcə yığıncağın gündəliyi barədə məlumat verilib. Gündəliyə YAP Həmkarlar İttifaqı Komitəsinin 21 iyun 2021-25 avqust 2023-cü il tarixlərini əhatə edən dövrdəki fəaliyyətinə dair hesabatı, partiyanın Həmkarlar İttifaqı Komitəsinin cari ilin ötən dövrü üçün gəlir və xərclərinin təftişinin nəticələri barədə hesabatı və təşkilati məsələlər daxil edilib. Gündəlik səsə qoyularaq təsdiqlənib.

Sonra Yeni Azərbaycan Partiyası Həmkarlar İttifaqı Komitəsinin fəaliyyətinə dair hesabat dinlənilib. YAP Həmkarlar İttifaqı Komitəsinin sədri Qara Qarakişiyev bildirib ki, partiyanın Həmkarlar İttifaqı Komitəsi ötən dövrdə müxtəlif xarakterli tədbirlər həyata keçirib, eyni zamanda, işçilərin sosial müdafiəsinin və istirahətinin təmin olunması istiqamətində müvafiq addımlar atıb.

Yığıncaqda daha sonra Yeni Azərbaycan Partiyası Həmkarlar İttifaqı Komitəsinin Təftiş Komissiyasının sədri Əhliman Tağıyevin təşkilatın cari ilin ötən dövrü üçün gəlir və xərclərinin təftişinin nəticələri barədə hesabatı dinlənilib. Təqdim olunan hesabatlardan sonra müzakirələr aparılıb. Müzakirələrin sonunda Yeni Azərbaycan Partiyası Həmkarlar İttifaqı Komitəsinin hesabat dövrü ərzindəki fəaliyyəti kafi qiymətləndirilib. Tədbirdə çıxış edən Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqının sədri Hikmət Osmanov YAP Həmkarlar İttifaqı Komitəsinin fəal təşkilatlardan biri olduğunu bildirib. O qeyd edib ki, Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı bundan sonra da işçilərin əmək və sosial hüquqlarının təmin olunması ilə əlaqədar YAP Həmkarlar İttifaqı Komitəsi ilə sıx əməkdaşlıq edəcək.

Yığıncaqda YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov çıxış edərək partiyanın Həmkarlar İttifaqı Komitəsinin ötən dövr ərzindəki fəaliyyətinə münasibət bildirib. O qeyd edib ki, Yeni Azərbaycan Partiyası Həmkarlar İttifaqı Komitəsinin fəaliyyətində aşkarlıq, şəffaflıq və kollegiallıq prinsipləri əsas amil olmalıdır. YAP Mərkəzi Aparatının rəhbəri bildirib ki, təşkilat bundan sonrakı dövrdə işini daha keyfiyyətli qurmalıdır. Ona görə də təşkilatın yeni sədri başqa vəzifə daşımamalı, partiyanın Həmkarlar İttifaqı Komitəsinin sədri kimi müvafiq fəaliyyətlə məşğul olmalıdır.

Daha sonra təşkilati məsələlərə baxılıb. YAP Həmkarlar İttifaqı Komitəsinin 15, Təftiş Komissiyasının isə 5 nəfərdən ibarət tərkibi müəyyənləşib. Məhəmməd Yusif oğlu Məhərrəmov YAP Həmkarlar İttifaqı Komitəsinin sədri seçilib. Məhəmməd Məhərrəmov çıxış edərək göstərilən etimada görə təşəkkürünü bildirib və fəaliyyəti dövründə bu etimadı layiqincə doğrultmağa çalışacağını vurğulayıb.

YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqının sədri Hikmət Osmanov yeni sədrə fəaliyyətində uğurlar arzulayıblar.

*Ən qədim musiqi janrlarından olan muğam bütün dövrlərdə dünya musiqişünaslarının, sənətsevərlərin diqqət mərkəzində olması əbəs yerə deyildi. Qədim və orta əsr musiqi mədəniyyətinin, folklorunun öyrənilməsində muğam əsas amillərdən biri kimi tədqiqatçıların daim təhlil obyektinə çevrilmiş və bu janr bu gün də musiqişünaslar tərəfindən araşdırılmaqdadır. Yaşı bilinməyən muğamlarımızın müəllifi Azərbaycan xalqıdır və muğamımız yalnız Azərbaycanda, Şərq ölkələrində deyil, ümumilikdə dünyada sevilir və bəşəriyyətin mənəvi irsinin bənzərsiz xəzinələrindən hesab edirlir.*

# Bəşəri musiqimiz: Azərbaycan muğamı



Avqustun 26-sı Beynəlxalq Azərbaycan Muğamı Günü və İpək Yolu üzərində yerləşən ölkələrin musiqisi günü kimi qeyd olunur. 2010-cu ildə Kanadanın Niaqara şəhərinin meriyası və ənənəvi olaraq hər il keçirilən Beynəlxalq



Niaqara Musiqisi Festivalının rəhbərliyi tərəfindən qəbul olunan bu qərar xalqımızın milli sərvəti olan muğamın bəşəri musiqiyə çevrildiyini bir daha təsdiq edir. Bu tarix muğamsevərlər, ömrünü bu sənətin yaşamasına və təbliğinə həsr edənlər üçün ən əziz bayramdır.

Azərbaycan muğamı dünya ölkələrində birmənalı olaraq qəbul edilir, dünyanın mədəni irs siyasında nadir əsər tək qorunur və təqdim olunur. 26 avqust tarixi bütün muğamsevərlərin, xüsusilə də, bu sənət növünü yaşadan və onun təbliğinə daim yaradıcılıq və həyat yolunu həsr edən şəxslərin bayramıdır. Muğam sənəti Azərbaycanın professional musiqi mədəniyyətinin şifahi irsinin mühüm qismini təşkil etməklə, Azərbaycan xalqının mədəni ənənələrində və tarixində dərin köklərə malikdir. Bu mədəni ənənənin Azərbaycanda köklərinin olması ölkədə onun daşıyıcılarının sayı, eləcə də, onun Azərbaycan bəstəkarlarının, rəssamlarının, heykəltəraşlarının və şairlərinin tükənməz ilham mənbəyi olan milli mədəniyyətdə mühüm rolu ilə təsdiqlənir. Muğam sənəti azərbaycanlılar tərəfindən milli özünüdərk və özünü eyniləşdirmənin əsasını təşkil edən başlıca mədəni dəyərlərdən biri kimi qavranılır. Bu sənət Azərbaycan ərazisində yaşayan talışlar, dağlı yəhudilər ləzgilər, gürcülər, avarlar kimi etnik qruplar arasında da populyardır. YUNESKO muğamı ”bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərlərindən biri” elan etmişdir. Muğam - Azərbaycanın ənənəvi musiqisinin ən iri janrının ümumi adıdır, muğam formalarının bütün növlərinə şamil olunur, hərçənd onlardan hər birinin öz ayrıca adı mövcuddur. Bu janrı təmsil edən başlıca musiqi formaları - dəstgah, muğam və zərbi-muğamdır. Azərbaycan musiqisində mövcud olan bütün muğam formaları arasında öz miqyasına və bədii ideyasına görə ən böyüyü dəstgahdır. Professional muğam sənətinin tarixinə mənbələr əsasında diqqət yetirsək, görərik ki, 1922-ci ildə muğamın tədrisi Bakıda açılmış ilk Avropa tipli musiqi tədris müəssisəsinin dərs proqramına daxil edilmişdir. Tədris proqramının tərtibi sonda Azərbaycan dəstgahlarının strukturunda xeyli islahatlara və ənənəvi məhəlli məktəblərin nisbi unifikasiyasına gətirib çıxardı. Muğamın tarixinə diqqət etdikdə, görürük ki, Üzeyir Hacıbəylinin göstərişinə əsasən, o vaxtın ən nüfuzlu musiqiçilər qrupu dəstgahların ixtisar edilmiş tədris versiyalarını işləyib hazırlamışdır. Ötən əsrin 20-ci və 30-cu illərində tədris versiyaları ilə yanaşı, böyük sənətkarların - o vaxtın ustadlarının genişləndirilmiş versiyaları da mövcudluğunu davam etdirirdi. Muğam ifaçılığının yayılmasında və onun professional şəkil almasında XIX yüzilin 20-ci illərindən XX yüzilin əvvəllərinə qədər Azərbaycan şəhərlərində yaranmış ədəbi və musiqi məclisləri böyük rol oynamışlar. Onlardan ən məşhuru Şuşada ”Məclisi-Fəramuşan”, ”Məclisi-Üns”, Musiqiçilər Cəmiyyəti, Şamaxıda ”Beytüs-səfa” və Mahmud ağanın musiqi məclisi, Bakıda ”Məcməüş-şüəra”, Gəncədə ”Divani-hikmət”, Ordubadda ”Əncümən-üş-şüəra”, Lənkəranda ”Fövcül-füsəha” idi. Bu məclislərdə şairlər, ədiblər, musiqiçilər, sadəcə, ziyalı şəxslər, klassik poeziyanın və musiqinin sərrafları və biliciləri toplaşır, muğamları diqqətlə dinləyir, musiqinin və şeirin incə ifası ətrafında müzakirələr aparırdılar. Məclislər özlüyündən XIX yüzildə və XX yüzilin əvvəlində Azərbaycan musiqiçilərinin professional baxımdan kamilləşmələrində güclü stimul rolunu oynamışdı. XX yüzilin 20-ci illərindən başlayaraq - sovet dövründə Azərbaycanda musiqi təhsili, o cümlədən, muğamın tədrisi 3 mərhələli sistem üzərinə köçürüldü: məktəb - texnikum - konservatoriya. Beləliklə, muğam sənətinin tədrisi prosesi indi formal olaraq 14-15 il vaxt aparır. İfaçılar özləri hesab edirlər ki, professional yetkinlik musiqiçiyə 5-10 il praktik çıxışlardan tez olmayaraq çatmaq olar. Beləliklə, muğam ifaçısının ustad, yəni öz peşəsində əsil professional olmasından ötrü 20-25 il vaxt tələb olunur. Tələbin bu səviyyəsi özlüyündə muğamı şifahi ənənəvi professional sənət səviyyəsinə qaldırır.

### MUĞAMA YENİ BAXIŞ

Azərbaycanda sovet rejimi qurulduqdan sonra, xüsusən də, 30-cu illərdən başlayaraq, musiqi mədəniyyəti tamamilə dövlətin nəzarəti altına keçir. Sovet dövlətinin yürütdüyü ”dəmir pərdə” siyasəti uzun müddət Azərbaycan musiqisi üçün beynəlxalq musiqi məkanına çıxışı bağlamışdı. XX yüzilin əvvəllərində, Şərq incəsənəti Qərb auditoriyasında maraq doğurduğu vaxtlarda Azərbaycan musiqiçiləri məlum siyasi vəziyyətə görə, ona sərbəst çıxışa malik olmadıqları kimi sovet Şərqinin ənənəvi musiqiçiləri də belə bir çıxışa malik deyildilər. Müvafiq olaraq Qərbin bədii məkanında müsəlman Orta Şərqinin musiqi mədəniyyətlərindən daha çox yeri ərəb, İran və türk ənənəvi musiqisi tutmuşdur. Xarici mədəni məkanda Azərbaycan muğamının mövqeyinin itirilməsi ilə yanaşı, Azərbaycanın özünün daxilində də keçən yüzilin 20-30-cu illərin məlum şüarlarında ifadə olunmuş nihilist tendensiya (”doloy tar!”, ”doloy muğam”) tədricən muğam sənətinin ictimai statusunu laxlatdı.

XX yüzilin 30-cu illərindən başlayaraq, 70-ci illərədək olan dövrdə Azərbaycan cəmiyyətində muğamata primitiv sənət kimi baxış tədricən möhkəmlənməyə başladısa da, hər halda cəmiyyətdə, onun müeyyən bir hissəsində muğamatın populyarlığını azaltmadı. Muğam sənətinə münasibət yalnız XX yüzilin 70-ci illərində ənənəvi musiqinin ilk beynəlxalq simpoziumları və festivallarının keçirilməsindən və bu hadisələrin sovet cəmiyyətində geniş əks-səda doğurmasından sonra dəyişməyə başlayır. Bu tədbirlər ənənəvi musiqi sənətinə marağın oyanmasına və ona yüksək dərəcəli professional sənət olaraq baxışların formalaşmasına rəvac verdi.

XX yüzilin 90-cı illərindən başlayaraq Azərbaycan muğam sənəti dünyanın hər yerində dinləyicilərin, mütəxəssislərin və menecerlərin diqqətini get-gedə daha geniş şəkildə özünə cəlb etməyə başlayır. Azərbaycanın ənənəvi musiqiçiləri beynəlxalq festivallarda iştirak edir, dünyanın hər yerinə qastrollara çıxır, onların diskləri Qərbin ən iri səsyazma studiyalarında buraxılır.

### HƏR KƏSİN QƏLBİNİ, RUHUNU OXŞAYAN MUSİQİ

Müasir dövrümüzdə özünün yeni bir inkişaf dövrünü yaşayan Azərbaycan muğamı dövlət tərəfindən qorunur və təbliğ edilir. Azərbaycan xalqının mədəni ənənələri və tarixində dərin köklərə malik olan muğam sənətinin inkişafına və təbliğinə xüsusi önəm verilir. Muğamı qorumaq, inkişaf etdirmək, onun gözəlliyini və dərin fəlsəfəsini gələcək nəsillərə çatdırmaq məqsədi ilə Heydər Əliyev Fondu tərəfindən irimiqyaslı layihələrin həyata keçirildiyini qeyd etməliyik. ”Azərbaycan muğamları” layihəsi çərçivəsində ”Qarabağ xanəndələri” musiqi albomunu nəfis şəkildə nəşr etmişdir. Albomda 24 virtuoz muğam ifaçısının səsləndirdiyi muğam parçaları qədim və zəngin mədəniyyətimiz barədə dinləyicilərdə geniş təsəvvür yaradır.Millimənəvi dəyərlərin qorunması və Azərbaycan mədəniyyətinin təbliği sahəsində həyata keçirilmiş layihələr arasında Azərbaycan muğamının dünyada geniş təbliği məqsədi ilə Bakı şəhərində Beynəlxalq Muğam Mərkəzinin yaradılması önəmli yer tutur. Regionlarda da Muğam Mərkəzlərinin yaradılmasına dəstək verən Heydər Əliyev Fondunun təşəbbüsü Muğam Mərkəzləri inşa olunmuşdur. Füzuli, Ağcabədi, Ağdam kimi rayonlarında muğam mərkəzləri yaradılmışdır. Heydər Əliyev Fondu tərəfindən Azərbaycan muğamının inkişafı və dünyada tanıdılması məqsədilə müxtəlif müsabiqələr və beynəlxalq festivallar təşkil edilərək həyata keçirilir. İlk olaraq fondun birbaşa dəstəyi ilə keçirilən və Azərbaycan muğam sənətinin inkişafına və təbliğinə böyük töhfələr verən muğam müsabiqələrini və beynəlxalq festivalları qeyd etmək lazımdır. 2005-ci ildə görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin anadan olmasının 120 illik yubileyi münasibətilə Heydər Əliyev Fondu tərəfindən keçirilən muğam müsabiqəsi Azərbaycan tamaşaçıları ilə yanaşı, xaricdə yaşayan soydaşlarımız tərəfindən də razılıqla qarşılandı. Qədim muğam sənətinin qorunub saxlanılması, zəngin tarixə malik ifaçılıq sənətinin gələcək nəsillərə çatdırılması, yeni ifaçılar nəslinin yetişdirilməsi məqsədi ilə fond 2007-ci ildən başlayaraq muğam müsabiqəsi keçirilir.Bakıda Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilati dəstəyi ilə dünyada ilk dəfə olaraq ”Muğam aləmi” Beynəlxalq Muğam Festivalının keçirilib. Festival çərçivəsində keçirilən Respublika Muğam Müsabiqəsi, Beynəlxalq Muğam Müsabiqəsi və Beynəlxalq Elmi Simpoziumda muğamsevərlər, elmi tədqiqatçılar və dünyanın bir çox ölkələrindən dəvət olunmuş xarici qonaqlar iştirak etmişlər. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan muğam sənətinə bu diqqət və qayğısı muğamın təbliği, tədrisi, peşəkar musiqi ifaçılığının, müasir dinləyici mədəniyyətinin formalaşdırılmasında əvəzsiz rol oynayır.

2008-ci ildə, həmçinin, Fondun Azərbaycan muğamına həsr olunmuş yeni nəşri - ”Azərbaycanın muğam ensiklopediyası” (iki cilddə) Azərbaycan, rus və ingilis dillərində nəşr edilmişdir. Bu gün Azərbaycan muğam sənətinin nüfuzlu simaları dünya miqyasında Azərbaycan muğam sənətini təbliğ edərək bu sənəti nadir əsər tək tamaşaçılar çatdırırlar. Demək olar ki, bu gün Azərbaycan muğamı dünyanı fəth edib. Bu sənətin qocaman, yaşlı, gənc sənətkarları hər zaman öyrənir, öz üzərilərində çalışır və Azərbaycan muğamını çoxsaylı tamaşaçıya təqdim edirlər. Belə bir sənət növü ilə hər bir azərbaycanlı qürürlanmaqda haqlıdır.

Beynəlxalq Azərbaycan Muğamı Günü və İpək yolu üzərində yerləşən ölkələrin musiqisi günü elan olunması bir daha Azərbaycan mədəni irsinə beynəlxalq səviyyədə verilən qiymətdir. Bu gün dövlətimizin mədəniyyətimizə, o cümlədən muğam sənətinə, onu yaşadanlara böyük diqqət və qayğısı onları yeni-yeni yaradıcılıq axtarışına həvəsləndirir. Muğamımız bu gün bütün dünyanı fəth etmək, dilindən, dinindən, irqindən, miliyyətindən asılı olmayaraq, hər kəsin qəlbini, ruhunu oxşamaq iqtidarındadır.

**Zümrüd BAYRAMOVA**





# Günün mübarək, LAÇIN!

***"Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 31 iyul 2023-cü il tarixli Sərəncamı ilə yenidən qürur hissi yaşadıq. Çünki Sərəncamda da deyildiyi kimi, Ermənistanın hərbi təcavüzü nəticəsində 30 ilə yaxın işğal altında qalmış əzəli tarixi torpaqlarımız 44 günlük Vətən müharibəsində hərbi-siyasi yolla işğaldan azad olundu və şanlı Zəfərə aparan hər bir gün Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.***

Rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinin canı, qanı bahasına Vətən müharibəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələri, Xocavənd rayonunun Hadrut qəsəbəsi və bir çox kəndləri, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndi daxil olmaqla, ümumilikdə 300-dən çox yaşayış məntəqəsi, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklər işğaldan azad edildi. Qarabağın tacı Şuşa şəhərinin azad edilməsi və Ermənistanın kapitulyasiya aktını imzalamağa məcbur olması ilə müharibə başa çatdı.

Biz illər, əsrlər sonra da bu şanlı Zəfərin qürurunu yaşayacağıq. Bu qüruru ərazilərimizin işğaldan azad olunduğu tarixlərlə qeyd etməyimiz isə haqqımızdır. Çünki 30 ildə həmin o torpaqların, o şəhərlərin işğalından yetərincə bəhs etmişik, kədərlənib-hiddətlənmişik, ağlayıb-sızlamışıq, köks ötürmüşük. İndi isə o şəhərlərin sevincini yaşamalı, bu şanlı tarixi günləri tariximizin ön səhifələrinə yazmalıyıq.

### Laçın azad olan gün...

Sərəncamda qeyd edildiyi kimi, Azərbaycanın döyüş meydanında qazandığı böyük qələbə siyasi müstəvidə də öz təsdiqini tapdı – Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarını işğaldan azad etmək məcburiyyətində qaldı və bununla da tarixi ədalət bərpa olundu.

2020-ci ilin həmin gününü- dekabr ayının 1-ni qürurla xatırlayırıq. Dövlətimizin başçısı yenə xalqa müraciət edirdi: "Böyük sevinc hissi ilə bildirirəm ki, Laçın rayonu işğaldan azad olundu. Bütün Azərbaycan xalqını bu münasibətlə ürəkdən təbrik edirəm. Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq. Düşməni buna məcbur etdik. Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz – Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq".

Budur, artıq 26 avqust bundan sonrakı tariximizdə Laçın şəhəri günü kimi qeyd olunacaq. Həmin gün Laçından-onun dünənindən, bu günündən qürurla yazacağıq.




### Böyük səhv üçün 30 il...

1992-ci ildə Laçın Ermənistan ordusu tərəfindən işğal olunanda da dövlət də var idi, xalq da. Xalq elə bugünkü xalq idi: qəhrəman, cəsarətli, qorxmaz, igid, vətənpərvər oğullar yetişdirən xalq. Lakin Azərbaycan dövlətinin ozamankı rəhbərliyi tam fərqli idi. Hakimiyyət uğrunda mübarizədən başqa heç nəyi ilə yadda qalmayan AXC-Müsavat cütlüyü bu xalqı şəxsi mənafelərinin qurbanına çevirmişdi. Onlara əbədi masa təklif edən böyük qardaşlarına elə canı-dildən inanmışdılar ki, bunun üçün bütün ölkəni, xalqı qurban verməyə hazır idilər. Elə qurban da verdilər.

Azərbaycanın baş tacı olan Qarabağ onların vəzifə hərisliyinin qurbanı oldu. Xalq öz ata-baba yurdunu, əbədi torpaqlarını müdafiəyə qalxdı. Minlərlə oğul və qızımızı şəhid verdik. Minlərlə övladımız cəbhədən sağlamlığını itirərək qayıtdı. Lakin nəticə etibarilə ərazi bütövlüyümüz pozuldu, torpaqlarımızın 20 faizdən çoxu planlı şəkildə ermənilərə verildi.

Heç bir texnikası, silah-sursatı olmayan əliyalın xalq son anadək erməninin qarşısına çıxdı. Canından keçəcəyini, lakin torpağından keçməyəcəyini bildirdi. Lakin torpaqlar satılmışdı. Ermənilərə ərazilərimizə girmək üçün ən optimal yollar göstərilmişdi. Bu səbəbdən də minlərlə şəhid versək də, torpaqlarımızı qurtara bilmədik.

1992-ci ildə edilən böyük səhvin əzablarını düz 30 ilə yaxın bir dövrdə yaşadıq. Biz məcburi qaçqın, köçkünlərimizlə acınacaqlı bir tale yaşamalı olduq. Ölkə iqtisadiyyatını çökdürən ozamankı hakimiyyət Qarabağın işğalı ilə dövlətə dəyəri milyonlarla ölçülən ziyan vurdu. Azərbaycan uzun illər bu zərərlərin aradan qaldırılmasına çalışdı. AXC-Müsavat cütlüyünün səhvinin aradan qaldırılması, torpaqlarımızın düşməndən geri alınması, ərazi bütövlüyümüzün təmin edilməsi məqsədilə illərlə mübarizə aparıldı. Bu, elə də asan məsələ deyildi...

### Öncə iqtisadiyyat, sonra ordu, daha sonra torpaqlar...

Azərbaycan çökmüş iqtisadiyyatı fonunda nə milli ordunun yaradılmasına, nə də torpaqların geri alınmasına nail ola bilərdi. Ölkə rifah halı aşağı səviyyədə olan xalqın, üstəlik doğma ev-eşiyindən didərgin salınmış minlərlə məcburi köçkünün problemləri ilə üzüzə qalmışdı.

Belə bir dövrdə Ümummilli Liderimiz Heydər Əliyev 20 yanvar 1990-cı ildə sovet imperiyasının Azərbaycanda törətdiyi qanlı faciədən sonra Moskvadan ölkəmizə qayıtdı. Ozamankı hakimiyyət vurğunları pis xisləti ilə Onun Bakıda yaşamasına qarşı çıxdı. Belə olanda isə Ulu Öndər doğulduğu Naxçıvana qayıtmalı oldu. Və qayıtmasaydı, Naxçıvan da 90-cı illərin işğal planının qurbanı olacaqdı. Çünki 20 Yanvar hadisəsi fikirləri özünə yönəltməklə məhz Naxçıvanın işğalı üçün həyata keçirilmişdi.

Lakin Ulu Öndər naxçıvanlılarla birlikdə Naxçıvanı qorudu. Hələ üstəlik Azərbaycanın müstəqilliyi üçün addımlar da məhz Naxçıvandan başlandı. Xalqın təkidi ilə hakimiyyətə dəvət olunan böyük şəxsiyyət Azərbaycanın çox ağır günlərində bu vəzifəni öhdəsinə götürdü. Tarix də, zaman da sübut etdi ki, Azərbaycanı o ağır vəziyyətdən yalnız Ulu Öndər xilas edə bilərdi.

Heydər Əliyev dövründə bütün mürtəce qüvvələr hakimiyyətdən uzaqlaşdırıldı. Onların ölkənin müxtəlif ərazilərində həyata keçirmək istədikləri qarşıdurmaların qarşısı alındı. Ölkə iqtisadiyyatı dirçəlməyə başladı. Bu zaman milli ordunun da yaradılması reallaşdı.

Ulu Öndər Azərbaycanda elə bir idarəetmə sistemi tətbiq etdi ki, bununla ölkəmiz qısa zaman ərzində hərtərəfli inkişafa qədəm qoydu. Bütün dünya Azərbaycanı tanıdı. İqtisadi müqavilələr ölkənin gələcək inkişaf xəttini müəyyənləşdirdi.1993-2003-cü illərin hər anında Ulu Öndərimiz bütün çıxışlarında, səfərləri zamanı Qarabağın Azərbaycanın əzəli torpaqları olduğundan bəhs edir və bu torpaqların bir gün azad ediləcəyini bildirirdi. Ermənistanı dəfələrlə sülhə dəvət edir, dünyanı bu problemin həllinə çağırırdı. Lakin Ermənistan danışıqlara gəlmir, dünya isə susmaq mövqeyində dayanırdı.

Ulu Öndərin arzusunda olduğu, lakin ömrün vəfasızlığından reallaşdıra bilmədiyi məsələlərin hər birini dövlətimizin başçısı cənab İlham Əliyev böyük uzaqgörənliklə həyata keçirdi. 2020-ci ilə qədər ötən 17 illik fəaliyyəti dövründə ölkənin hərtərəfli inkişafı ilə Qarabağın azad olunması məsələsi paralel şəkildə aparıldı. Qısa zamanda ölkə iqtisadiyyatı gücləndi, milli ordu quruculuğu sürətlə həyata keçirildi. Ordu quruculuğuna ayrılan vəsait Ermənistanın ümumi büdcəsindən artıq oldu.

Dövlətimizin başçısı bütün dünyanı Ermənistan-Azərbaycan probleminin sülh yolu ilə həllinə çağırdı. Dünyanın ən mötəbər kürsülərindən Qarabağın Azərbaycanın əzəli torpağı olduğunu tarixi reallıqlarla sübut edərək ermənilər susdurdu. Bütün dünyaya haqlı olduğumuzu sübut etdi.

2020-ci ilədək xalqa yeni il və digər bayramlarla bağlı müraciətlərində, səfərləri zamanı çıxışlarında Qarabağın ya danışıqlar yolu, ya da hərb yolu ilə bir gün alınacağını qətiyyətlə söylədi. Bütün bunlar isə xalqda inam yaratdı. Dövlət-xalq birliyi də məhz bu kimi proseslərdən sonra formalaşır. Xalq heç vaxt inanmadığı dövlət rəhbəri ilə həmrəy ola bilmir. Bunu AXC-Müsavat cütlüyünün Azərbaycana rəhbərliyi illərində gördük.










Lakin xalq cənab İlham Əliyevin ətrafında birləşdi. Çünki açıqca gördü ki, Azərbaycanı yox olmaq təhlükəsindən Ümummilli Lider Heydər Əliyev və onun siyasi varisi cənab İlham Əliyev qurtardı.

## 2020-ci il 27 sentyabr

Dövlətimizin başçısının vəd verdiyi o gün gəlib çatmışdı. 27 sentyabr 2020-ci il. Bu zaman Azərbaycan artıq 30 il əvvəlki Azərbaycan deyildi. Azərbaycan böyük iqtisadi gücə malik, dünyanın tanıdığı, hesablaşdığı, güclü milli ordusu olan, vətənpərvər gənclərə, xüsusilə də dövlət-xalq birliyi əsasında formalaşan həmrəyliyə malik bir ölkə idi.

Ermənistan isə 30 il əvvəlki təfəkkürdə qalmış bir ölkə idi. O, hələ də "böyük Ermənistan" xülyası ilə yaşayır, qeyri-sağlam təfəkkürü ilə Azərbaycanın gücünü görə bilmirdi. Bu səbəbdən də yeni torpaqlar işğal etmək arzusu ilə meydana atılmışdı. Elə İkinci Vətən müharibəsinin başlanma səbəbi də bu oldu. Yadımdadır, dövlətimizin başçısı 27 sentyabrda səhər saatlarında xalqa müraciət edəndə də bunu vurğulamışdı. Ermənilərin yeni torpaqlara iştahlandığını, lakin bunun son olduğunu bildirmişdi.

Beləliklə, 27 sentyabr 2020-ci ildə Ermənistanın 30 illik əməllərinə son qoymaq üçün müharibəyə başladıq. Elə müharibənin ilk günləri Prezident İlham Əliyev bir neçə yüksəklik və kəndlərin geri alındığı müjdəsini verdi. Bu gündən həmin 44 günə nəzər salanda adamın ürəyi qürurla dolur. Hər kəs təsdiq edər ki, Azərbaycanda dövlət-xalq birliyi həmin günlərdəki qədər möhkəm, eyni zamanda xoş duyğularla dolu olmamışdı.

Dövlətimizin başçısının çağırışı ilə bütün xalq ayağa qalxmışdı. Hamı könüllü şəkildə cəbhəyə yollanmaq istəyirdi. Səfərbərlik idarələrinin qarşısı insanla dolu idi. Hər gün televiziya vasitəsilə hadisələri izləyir, "dövlət başçısının müraciəti olacaq" xəbərini alan kimi yenə müjdəli xəbər eşidəcəyimizə əmin olurduq. Beləliklə, 44 gün ərzində Prezidentimiz dəfələrlə xalqa müraciət etdi və ərazilərimizin işğaldan azad olunduğu xəbərlərini xalqına verdi.

Erməni ordusunun məhvi, 30 ildə yaratdıqları keçilməz müdafiə istehkamlarının yerlə yeksan edilməsi, onların Azərbaycan haqqında köhnə fikirlərinin alt-üst olması, hər gün bir qədər geri çəkilmələri, Azərbaycan ordusu qarşısında tab gətirə bilməmələri və müharibənin 44-cü günü Şuşanın azad olunmasından sonra məğlubiyyətlərini dərk edib kapitulyasiyaya gəlmələri bütün dünyaya xalqımızın gücünü, həmrəyliyini, dövlət başçısı, dəmir yumruq ətrafında sıx birləşməyimizi göstərdi. Dünya da bunu heyranlıqla qarşıladı. Dünənədək susanlar bu dəfə münasibətlərini bildirməyə başladı...

44 gün sonra müharibə bitdi. Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış birgə Bəyanatla Laçın, Kəlbəcər və Ağdam boşaldılmalı və Azərbaycana təhvil verilməli idi. Artıq dekabr ayının 1-də Laçın 30 ildən sonra anası Azərbaycana qovuşdu. Bu müjdəli xəbəri də ölkəmizin başçısı, Ali Baş Komandan cənab İlham Əliyevdən aldıq: "Böyük sevinc hissi ilə bildirirəm ki, Laçın rayonu işğaldan azad olundu. Bütün Azərbaycan xalqını bu münasibətlə ürəkdən təbrik edirəm. Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq. Düşməni buna məcbur etdik. Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz – Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq".

## Laçına Qayıdış-qürur üzərinə qürur

Müharibənin Zəfərlə bitməsi xalqımıza böyük qürur hissi yaşatdı. O gündən bu günə kimi isə onlarla belə qürurlu anlar yaşamışıq. Qürurlu anlardan birini də may ayının 28-də, Laçın 31 il sonra doğma sakinlərini qoynuna alanda yaşadıq.

Prezident İlham Əliyevin Laçın şəhərinə qayıdan əhali ilə görüşündəki çıxışı böyük tarixi faktlar toplusudur. Kəlmə-kəlmə dinlədiyimiz dəyərli fikirlər bizi yenidən 44 günə apardı. Lakin burada bir fərq vardı. Biz artıq bu fikirləri Ermənistan üzərində tam qələbəni qazanmış müzəffər Ali Baş Komandandan dinləyirdik.

Prezident evlərin açarlarını Laçın sakinlərinə təqdim etdi və dedi: Əziz laçınlılar, siz uzun illər əzab içində yaşamısınız, həm fiziki, həm mənəvi, ağır şəraitdə, yataqxanalarda, vaqonlarda, çadır şəhərciklərində. Ondan daha ağırı mənəvi əzab idi. Yəni, öz doğma torpağına qayıda bilməmək əzabı dəhşətlidir. Bunu hər kəs başa düşməlidir və başa düşür. Mən dəfələrlə həm Laçından, həm də o vaxt işğal edilmiş digər rayonlardan köçkünlərlə görüşəndə onlara ürək-dirək verirdim, deyirdim ki, qayıdacağıq, qayıdacağıq! Görürdüm ki, son vaxtlar ümidlər bir az səngiyir, bu da təbiidir. Yəni, 30 ilə yaxın. Bunu anlamaq olar. Amma deyə bilmirdim ki, nə vaxt qayıdacağıq. Necə deyə bilərdim? Amma bilirdim ki, qayıdacağıq və əgər indi 11 il bundan əvvəlki görüşün videoyazısına baxsanız, görərsiniz demişdim ki, qayıdacağıq və Laçında daha gözəl evlər tikiləcək. Bax, belə də oldu. Ona görə sizin üçün və sizin kimi keçmiş köçkünlər üçün şərait ən yaxşı olmalıdır, ən gözəl olmalıdır ki, siz uzun əzablı illərdən sonra burada rahat yaşayasınız. Biz çalışacağıq ki, bunu bundan sonra da təmin edək.

Mən sizi həm qayıtmağınız, həm də bayram münasibətilə təbrik edirəm, sizə cansağlığı, uğurlar arzulayıram.

Dövlətimizin başçısı daha sonra vurğuladı: Bu gün yeni Laçın şəhərinin yeni siması müstəqilliyimizin nə qədər güclü olmasını bir daha göstərir. Çünki cəmi 7-8 ay ərzində şəhərin böyük hissəsi tamamilə yenidən qurulub və sizin sərəncamınıza verilir. İlk 20 ailə artıq dünəndən Laçında yerləşibdir və iyun ayının sonuna qədər əlavə bir çox ailələr gələcək. Beləliklə, birinci mərhələdə Laçında 4 minə yaxın, bəlkə də çox insan yaşayacaqdır.

Bütövlükdə 7-8 ay ərzində 700 bina inşa edilib, onlardan 620-si fərdi yaşayış binası, 9 çoxmənzilli bina və orada 144 mənzil hazırlanıbdır. Beləliklə, artıq 764 ailə Laçın şəhərində yaşaya bilər. Amma bu, hələ tam proqramımız deyil. Laçın şəhərinin Baş planı hazırlanıb və bu gün təqdim ediləcək. Laçın şəhərində ikinci mərhələdə görüləcək işlərlə bağlı bizim çox dəqiq təsəvvürümüz var və beləliklə, hesab edirəm ki, ilin sonuna qədər daha çox insan Laçında yaşaya biləcək.

Bununla paralel olaraq indi tibb məntəqəsi hazırlanır. Məktəb yeni dərs ili üçün hazır olacaq, bütün digər lazımi şərait yaradılır. Dünən mənə göstərilən təqdimatda gördüm ki, onlarla müəssisənin yaradılması nəzərdə tutulur. Artıq Aqro və Sənaye Parkı yaradılmaqdadır, 1100-dən çox iş yeri yaradılacaq. Yəni, burada həm yaşamaq, həm işləmək üçün bütün şərait yaradılır və gördüyünüz kimi, bu gün Laçın şəhəri dünyanın ən gözəl şəhərlərindən birinə çevrilibdir.

Bu gözəl şəhərə iyunun 14-də növbəti köç karvanı yola salındı. Belə ki, daha 22 ailə - 72 nəfər doğma yurd-yuvasına döndü. Köç karvanı ilə iyunun 19-da Laçın şəhərinə 15 ailə - 48 nəfər, iyulun 13-də 23 ailə olmaqla, 85 nəfər, iyulun 25-də isə daha 19 ailə (89 nəfər) köçürüldü.

20 avqustda isə Laçın şəhəri yenə də doğmalarını qarşıladı. Bu dəfə isə daha 13 ailə - 46 nəfər doğma ocağına qayıtdı. Onlar Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlət başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşdılar.

## Laçın-cənnətin təsviri...

Torpaq şərəf, namusdur. Azərbaycan xalqı müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə milli ordumuzun sayəsində tarixi torpaqlarına qovuşdu və illərlə üzünə vurulan "sizin də torpaqlarınız erməni işğalı altındadır" töhmətindən azad oldu. Eyni zamanda, namus və şərəf məsələsini həll etdi.

Həqiqətən bir sərkərdə üçün xalqına itirdiyi torpağı azad edib qaytarmaqdan böyük xoşbəxtlik ola bilməz. Bu xoşbəxtlik Heydər Əliyev siyasətinin davamçısı, Ulu Öndərin siyasi və mənəvi varisi, ata vəsiyyətini böyük qətiyyətlə yerinə yetirən cənab İlham Əliyevə nəsib oldu. Tarix 1990-cı illərdə torpaqlarımızı satanları öz qara səhifələrinə yazdı. 2020-ci ildə həmin torpaqları böyük əzmlə geri alanları isə ən parlaq səhifələrinə həkk etdi. Bundan böyük səadət ola bilməz ki, bir xalqın tarixində əbədiyyən yaşayasan.

Qədim Laçın və yurdun əzəli sakinləri bu gün yurdlarının azadlığı, bərpası və artıq Böyük Qayıdışa başladıqları üçün müzəffər Ali Baş Komandana minnətdardırlar. Onlar cənnət ata-baba torpaqlarının, doğma ev-eşiklərinin artıq əbədi sakinləridir.

Sakinlərlə görüşündə dövlətimizin başçısının daha bir dəyərli fikri isə Laçının gözəlliyini xarakterizə etir: Biz öz doğma torpaqlarımızı işğalçılardan azad edəndən sonra mən demişdim ki, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Cənnətin əgər təsviri varsa, bu gün bax, budur. Gözəl təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər – hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun.

Günün mübarək, Laçın! Cənnətin təsviri olaraq hələ qarşıda bütün sakinlərini qarşıladıqca daha gözəl görünəcəksən. Çünki yurd yurddaşı ilə həqiqətən bir cənnətdir...

***Mətanət Məmmədova***

# Dövlət-din konsepsiyasına uyğun möhkəmlənən tolerantlıq mühiti

*Şərqlə Qərbin ortaq dəyərlər modeli sayılan Azərbaycan dünyanın mədəniyyətlərarası dialoq mərkəzlərindən birinə çevrilib. Xalqımızın çoxəsrlik tolerant, mehriban birgəyaşama mədəniyyəti dünya sivilizasiyaları arasında münasibətlərin tənzimlənməsi və inkişafında nümunə kimi göstərilir. Bu istiqamətdə Azərbaycan dövləti tərəfindən həyata keçirilən tədbirlər bəşəriyyətin təhlükəsiz gələcəyi və birgəyaşama ənənələrinə, dialoq və mədəni çeşidliliyə dəstəyin bariz nümunəsidir. Azərbaycanda müxtəlif xalqların birgə yaşamaq qaydası, müxtəlif dinlərə münasibət, cəmiyyətdə tolerantlıq mühitinin qorunması kimi məsələlərin müzakirəyə cəlb edilməsi aktualdır.*



Multikultural dəyərlərə sahib olmaq anlaşılmazlığa, fobiyaya, milli və dini münaqişələrə son qoymaq deməkdir. Azərbaycan dünya ölkələrinə müxtəlif icmaların dinc şəraitdə və qarşılıqlı hörmət münasibətində birlikdə yaşaya bilmək modeli kimi nümunə göstərə bilir. "Tolerantlıq, dözümlülük çox geniş anlayışdır", - deyən Ulu Öndər Heydər Əliyev onun həm insani münasibətlərin, həm insan cəmiyyətində gedən proseslərin, həm də dövlətlərarası, millətlərarası, dinlərarası münasibətlərin bir çox cəhətlərinə aid olduğunu bildirirdi: "O, təkcə dinlərin bir-birinə dözümlülüyü deyil, həm də bir-birinin adətlərinə, mənəviyyatına dözümlülük, mədəniyyətlərə dözümlülük deməkdir".

Ölkəmizdə mövcud olan dini icmaların fəaliyyətinə hərtərəfli şərait yaradılıb və heç vaxt ölkəmizdə dini və milli zəmində qarşıdurma baş verməyib. Müasir dövrümüzdə ölkəmizdə müxtəlif dini konfessiyalar fəaliyyət göstərir. Müasir dövrümüzdə Azərbaycanın milli siyasəti müxtəlif millət, etnik qrup və dini azlıqların birgə yanaşı yaşaması və dözümlülük prinsipləri əsasında müəyyənləşdirildiyindən ölkəmiz çoxmillətli və çoxdinli bir ölkəyə çevrilib. Dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, əqidəsindən, siyasi partiyalara və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. Milli və ya dini azlığın nümayəndəsi olmasından asılı olmayaraq, Azərbaycan vətəndaşı olan hər bir kəs eyni hüquqa malikdir. Azərbaycan Respublikası Konstitusiyasının 18-ci maddəsinə əsasən, Azərbaycan Respublikasında din dövlətdən ayrıdır və bütün dini etiqadlar qanun qarşısında bərabərdir. İnsan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin yayılması və təbliği qadağan edilir.

### MÜXTƏLİF DİNLƏRİ TƏMSİL EDƏN İNSANLAR SÜLH, ƏMİN-AMANLIQ VƏ QARŞILIQLI HÖRMƏT ŞƏRAİTİNDƏ

Əlbəttə ki, ölkəmizdə tolerantlıq ənənələrinin qorunmasında dövlət-din münasibətləri mühüm rol oynayır, Azərbaycanda tolerantlıq mühitindən söz açarkən, ilk növbədə, ölkəmizdə hökm sürən siyasi sabitliyi, sosial və iqtisadi inkişafı vurğulamalıyıq. Müxtəlif dillərdə danışan, müxtəlif dinləri təmsil edən insanlar sülh, əmin-amanlıq və qarşılıqlı hörmət şəraitində bir ailə kimi yaşayırlar. Bura yəhudilərin, müsəlmanların və xristianların yan-yana ibadət etdikləri məkandır. Azərbaycanda bütün dini konfessiyaların nümayəndələrinin öz dini etiqadlarını, ayinlərini sərbəst və bərabər şəkildə yerinə yetirmək imkanları var və ölkədə məscidlərlə yanaşı pravoslav, katolik, alban kilsələri və sinaqoqların fəaliyyət göstərir. Çünki bu gün Azərbaycan dövləti çoxmədəniyyətli dünyada sülh şəraitində birgə yaşamaq prinsipini əsas meyar götürüb. Azərbaycanda yaşayan qədim yəhudi, xristian, udin və digər milli azlıqların yaşayış məskənləri olan Krasnaya Sloboda, Nic və İvanovka kəndləri dövlətin daim diqqət və qayğısı ilə əhatə olunub. Bu gün regionumuzda və dünyada yaşanan xoşagəlməz hadisələr, qanlı toqquşmaların olması Azərbaycan kimi sülsevər bir dövləti narahat etməyə bilməz. "Ölkəmizdə sabitliyin mənbəyi xalqımızın iradəsidir, xalqımızın seçimidir"- deyən İlham Əliyev müasir dövrümüzdə ölkəmizin dünya miqyasında sabitliyi ilə seçilən ölkələrdən birinə çevrildiyini bildirib. Belə bir ölkə multikultural və tolerant dövlət kimi millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyardır və ölkəmizdə multikulturalizm alternativi olmayan həyat tərzinə çevrilib. Təsadüfi deyil ki, dünya dövlətləri Azərbaycanın bu sahədə öz təcrübəsini yaymasında maraqlıdır. Azərbaycan yüksək dəyərlərə sahib olan multikultural cəmiyyətdir. Dünyada baş verən böhranlardan və münaqişələrdən uzaq olmaq, birgə tədbirlərin görülməsinə nail olmaq, terrorizmə, münaqişələrə qarşı səmərəli mübarizə aparmaq üçün vətəndaşlıq prinsipləri, insan haqları, bərabərlik amillərini hər zaman diqqətdə saxlayan Azərbaycan terrorizm aktlarını törədənlərə, irqi və dini zəmində münaqişə yaradanlara qarşı barışmaz mövqeyini ortaya qoyur, islam dünyasının həmrəyliyinə töhfəsini verir. Azərbaycandakı mövcud vəziyyət onu deməyə əsas verir ki, ölkəmizdə multikulturalizmin alternativi yoxdur. Azərbaycan bir çox millətlərin və konfessiyaların birgə əmin-amanlıq şəraitində yaşadıqları unikal yerdir və bu ənənələrin tarixi kökləri var.



TƏHLİL

### ƏHALİSİNİN TƏRKİBİ ETNİK, DİNİ VƏ MƏZHƏB BAXIMINDAN ZƏNGİN AZƏRBAYCAN

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası, Azərbaycan Yəhudiləri dini icması, Avropa Yəhudilərinin Bakı dini icması, Bakı şəhəri Dağ Yəhudiləri dini icması, Bakı Krişna Şüuru dini icması, "Yeni həyat" Xristian İncil dini icması, Bakı şəhəri "Molokan ruhani-xristian" dini icması, Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icması, Gürcü Yəhudilərinin Bakı dini icması, Xilaskar Yevangelik Lüteranların Bakı dini icması və s. onlarla belə qurumlar hər bir millətə ruslara, molokanlara, yəhudilərə, tatlara, saxurların, udilərin sərbəst yaşama və dinc həyat tərzi sürməsi üçün geniş imkanların yaradıldığından xəbər verir. Ölkənin ictimai-siyasi, mədəni həyatında iştirak üçün tam bərabər hüquqa malikdirlər. Son illər Avropanın üzləşdiyi böyük miqrasiya dalğasında bu məfhumun lazımı səviyyədə tənzimlənməməsinin şahidinə çevrildik. Bu, onun göstəricisidir ki, demokratik, sülhsevər adlandırılan ölkələr buna hazır deyillər. Bu gün Azərbaycan multikulturalizminin dünyada tanıdılması, beynəlxalq arenada təbliği və təşviqi ilə bağlı mühüm layihələr həyata keçirir. Tolerantlıq mühiti dövlət-din konsepsiyasına uyğun daha da möhkəmlənib, bu sahə də dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Azərbaycan əhalisinin tərkibi həm etnik, həm dini, həm də məzhəb baxımından zəngindir. Azərbaycanda yüzillər boyu bərqərar olmuş tolerantlıq mühiti XIX əsrin əvvəllərində ölkəmizə köçürüldükləri ilk vaxtlardan alman mühacirlərinin yerli əhali ilə qısa müddətdə dərin ünsiyyət qurmasına əlverişli zəmin yaradıb. Almanların Azərbaycana ilk kütləvi köçü isə 1819-cu ilə təsadüf edir. Həmin ilin yayında Tiflisdən Azərbaycanın Yelizavetpol qəzasına köçən 194 alman ailəsi Şamxor (indiki Şəmkir) yaxınlığında iki koloniya salıblar. Həmin kəndlərdə geniş küçələr, aynabəndli, taxtapuşlu, zirzəmili və eyvanlı evlər tikilirdi. Tarixi mənbələrdə göstərilir ki, sonralar Gəncə və Qazax qəzalarında almanların yeni koloniyaları - Georqsfeld (indi Şəmkirin Çinarlı qəsəbəsidi), Alekseyevka, Qrünfeld (indi Ağstafanın Həsənsu kəndidi), Ayxenfeld (indi Şəmkirin İrmaşlı kəndidi), Traubenfeld (indi Tovuz şəhəri), Yelizavetinka ( indi Agstafa şəhəri) və Marksovka yarandı.

XIX əsrin sonu-XX əsrin əvvəlində Azərbaycanda yaşayan almanların əksəriyyəti protestantlığa etiqad edirdilər. Ölkəmizdə protestant kilsəsi 1857-ci ildə, məhz Helenendorfda (Xanlar ərazisində) tikilib. Sonralar Gədəbəy, Şamaxı, Bakı, Şəmkir ərazisində də alman lüteran kilsələri tikilib istifadəyə verildi. Almanların Azərbaycana yerləşdirilməsindən sonra əlli il ərzində Gəncə ətrafında iki, Şəmkirdə üç, Tovuzda bir, Ağstafada üç alman yaşayış məntəqəsi salınıb və alman ailələrinin sayı 3400-ü ötüb. Hazırda Şəmkir, Ağstafa, Xaçmaz, Göygöl və digər bölgələrdə çoxlu sayda alman abidələri Mədəniyyət və Turizm Nazirliyi tərəfindən qeydiyyata alınıb və dövlət tərəfindən qorunur.

Azərbaycanda almanların inşa etdikləri məşhur tikililərin bəziləri Bakıda da yerləşir. Bakıda-28 May küçəsində yerləşən alman kilsəsi-Kirxa onlardan biridir. Azərbaycanda yaşayan alman icması hər bazar günü bu kilsəyə gəlib, öz dualarını oxuyur, ibadət edir və söhbət aparırlar. O dövrdə Bakıda məskunlaşan alman və İsveç əsilli insanlar burada dini ibadət üçün bu kilsəni tikmək qərarına gəlirlər. Tarix boyu tolerantlığı ilə dünyaya nümunə olan xalqımız bu ideyanın həyata keçirilməsində onlara dəstək verir. Beləliklə, 1896-cı ilin martında Bakıda yevangelik-lüteran kilsəsinin təməli qoyulmuş və 1899-cu ildə istifadəyə verilmişdir. 24 yaşlı alman Adolf Eyxlerin memarı olduğu bina o dövrdə Bakının ən nadir arxitektura inciləri sırasına daxil olur. Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2010-cu ildə bu binada əsaslı təmir və bərpa işləri aparılıb. Azərbaycan mütəxəssisləri əsaslı təmir və bərpa işlərini binanın özünəməxsus orijinal üslubunu, qədim tarixi memarlığını qorumaqla həyata keçirilib. Kirxanın yanında daha bir bina var. Kapelhauz adlanan bu bina Alman mədəniyyət mərkəzidir.

Azərbaycan xalqı digər xalqlara qarşı həmişə tolerantlıq göstərib və bu gün də bu ənənə qorunub-saxlanılır. Bir daha aydın olur ki, Azərbaycan əsrlərdir fərqli din və mədəniyyətlərin qovuşuğunda yerləşir, ölkədə tarix boyu tolerantlıq və multikulturalizm mövcud olub, müxtəlif etnik qrupların və dinlərin nümayəndələri burada sülh şəraitində birgə yaşayıblar. Ekstremizm və dözümsüzlük əleyhinə çıxış edən Azərbaycan kənar qüvvələrin, xaricdən gələn təhlükələrin qarşısını almaqda güclü və qətiyyətlidir. Belə ki, istər ölkə səviyyəsində, istərsə də beynəlxalq səviyyədə dinlərarası və çoxmədəniyyətli harmoniyanın inkişafına təkan verir və bu nailiyyətin davamlı olması üçün tədbirlər həyata keçirir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Xeyirxahlıq və humanizm Mehriban xanım Əliyevanın həyat fəlsəfəsidir"



*Müasir müstəqil, qalib Azərbaycan bu gün davamlı uğurları ilə dünyanın diqqətindədir. Təbii ki, bu uğurlar möhkəm təmələ əsaslanan siyasətin, qətiyyətin, böyük səylərin nəticəsidir. Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanın bugünkü uğurlarının başlanğıc tarixi, ölkəmizin həyatında dönüş nöqtəsi oldu. Bu gün böyük qürur hissi ilə qeyd edirik ki, Heydər Əliyev siyasəti möhtərəm Prezidentimiz İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın birgə səyləri nəticəsində uğurla davam etdirilərək Azərbaycanın qarşısında daha geniş imkanlar açır.*

Mehriban xanım Əliyeva daim çıxışlarında bu mühüm məqama xüsusi diqqət çəkərək bildirir ki, ölkəmizin hər bir vətəndaşı ömrünün böyük bir hissəsini, mənalı və yetkin çağlarını Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında yaşamışdır. Bu rəhbərlik təkcə yüksək vəzifə borcu kimi qalmadı, özünü insani mənada daha geniş əks etdirdi. Bu rəhbərlik vətənpərvərliyə, iradəyə, qüdrətə köklənmiş mərd ata və müdrik ağsaqqal qayğısı idi. Heydər Əliyevin həyatı böyük bir epoxanın aynası kimi ölkəmizin sevincli-kədərli günlərini və anlarını, Azərbaycanın bu tarix yollarını özündə əks etdirir. Məhz Heydər Əliyevin həyatı və fəaliyyəti sübut edir ki, əlçatmaz xəyalların və arzuların reallaşması insan fenomeninin gücü ilə mümkündür. Mehriban xanım Əliyeva dahi Ulu Öndərin həyat dərslərinin fonunda onu da bildirir ki, həmyaşıdlarım həyatlarındakı Heydər Əliyev mərhələsinin bugününü yaşayır, yenə də həyat dərsi keçirlər. Bu dərs Ulu Öndərin timsalında ruhun, iradənin gücünə, insanın məğlubedilməzliyinə inam dərsidir.

Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, Vətən və xalq naminə fədakarlıq, müasir müstəqil Azərbaycanın inkişafında, qarşıya qoyulan hədəflərə yüksək səviyyədə nail olunmasında, xalqımızın yüksək rifahının təmin edilməsində öz payı olan, milli-mənəvi dəyərlərə sadiqliyini atdığı addımları ilə sübut edən, xeyirxahlığı, humanistliyi sərhəd tanımayan, mərhəmət və şəfqət mücəssəməsi kimi tanınan Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti bir örnəkdir. Mehriban xanım Əliyevanın Prezident İlham Əliyev ilə çiyin-çiyinə Azərbaycanın daha qüdrətli ölkəyə çevrilməsi, beynəlxalq nüfuzunun artması, hazırkı mərhələdə- tarixi Zəfərimizin reallıqlarının həyata keçirilməsi istiqamətində göstərdiyi titanik səylər daim həm ölkə daxilində, həm də hüdudlarından kənarda diqqətlə izlənilir. Mehriban xanım Əliyeva 2004-cü ildən Heydər Əliyev Fonduna rəhbərlik edir. Heydər Əliyev Fondu tariximizə müasir müstəqil dövlətimizin qurucusu kimi daxil olmuş Heydər Əliyevin xatirəsinə xalqımızın ehtiramını ifadə etmək arzusundan, Onun zəngin mənəvi irsini əks etdirmək, azərbaycançılıq fəlsəfəsinin ölkəmiz üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq zərurətindən irəli gələrək yaradılmışdır. Fond təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif rəngarəng layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir. Özünün şəxsiyyətində təvazökarlığı, mərhəməti formalaşdıran, dünyada tanınmış siyasi xadim Mehriban xanım Əliyevanın əsas diqqət yetirdiyi sahələr insanlara qayğı, yardıma möhtac olanlara dəstək, gənc nəslin təhsili, gələcəyimiz olan uşaqların sağlamlığıdır. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana- yeni məktəb", " Hər uşağın ailəyə ehtiyacı var" kimi layihələr bunun bariz nümunəsidir. Mədəniyyətimizin inkişafı istiqamətində Heydər Əliyev Fondunun təşəbbüsü ilə reallaşdırılan tədbirlər təkcə bugünümüz üçün deyil, gələcəyimizə istiqamətlənmiş misilsiz xidmət kimi dəyərləndirilir. Bakıda Beynəlxalq Muğam Mərkəzinin yaradılması, ölkəmizdə Beynəlxalq muğam festivallarının keçirilməsi, mədəni və tarixi abidələrin bərpası, müxtəlif dinlərin, mədəniyyətlərin bir araya gəlməsinə xidmət edən konfransların təşkili və sair kimi biri-birindən mühüm addımların hər biri Azərbaycanın bugünü və gələcəyi üçündür. Qədim və zəngin tariximizin təbliği Heydər Əliyev Fondunun fəaliyyətinin əsasında dayanır. Azərbaycan həqiqətlərinin, artıq tarixin arxivinə atılmış Qarabağ münaqişəsinin əsl mahiyyətinin beynəlxalq ictimaiyyətə çatdırılmasında Fondun xidmətləri əvəzsizdir.

YAP Xətai rayon təşkilatının sədri ölkəmizdə idarəçilik sisteminin təkmilləşdirilməsinin bariz nümunəsi olan vitse-prezidentlik institutunun yaradılmasına da diqqəti yönəldərək cənab İlham Əliyevin 21 fevral 20017-ci il tarixli Sərəncamı ilə Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti təyin edilməsini ölkəmizin həyatında mühüm hadisə kimi dəyərləndirib. Bildirib ki, dövlət başçısı İlham Əliyev 21 fevral 2017-ci il tarixində keçirilən Təhlükəsizlik Şurasının iclasında Mehriban Əliyevanı Azərbaycanın Birinci vitse-prezidenti kimi təqdim edərkən bu qərarı şərtləndirən amillərin fonunda belə bir əminliyi də ifadə etdi ki, Mehriban xanım bundan sonra da ölkəmizin inkişafına öz dəyərli töhfəsini verəcək. Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır. Azərbaycanın Birinci vitse-prezidenti kimi fəaliyyətinə "Mən sizi əmin edirəm ki, gələcək fəaliyyətimi məhz bu prinsiplər əsasında qurmağa çalışacağam. Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam" çağırışı ilə başlayan Mehriban xanım Əliyevanın 6 ildən artıq dövrdə bu yüksək və məsul vəzifədə gördüyü işlərin miqyası dövlətimizin başçısının və xalqımızın etimadını layiqincə doğrultmasının nümayişidir. Mehriban xanım Əliyeva Birinci vitse-prezident kimi ilk müşavirəsini keçmiş qaçqın və məcburi köçkün ailələrin həyat şəraitinin yaxşılaşdırılmasına həsr etmişdi. Ümumilikdə bu kateqoriyadan olan insanların sosial müdafiəsinin gücləndirilməsi Azərbaycanın Birinci vitse-prezidentinin fəaliyyətinin əsas istiqamətidir. Mehriban xanım Əliyeva keçmiş qaçqın və məcburi köçkünlərlə görüşlərində daim bu inamı ifadə edirdi ki, tezliklə torpaqlarımız işğaldan azad olacaq, soydaşlarımız doğma yurd-yuvalarına qayıdacaqlar.

Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin digər istiqamətindən - ölkəmizin həyatında aparıcı rol oynayan, Ulu Öndər Heydər Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyasının qarşıya qoyduğu hədəflərin reallığa çevrilməsi istiqamətində gördüyü işlərdən bəhs edən YAP Xətai rayon təşkilatının sədri vurğulayıb ki, tarixi Zəfərimiz bütün sahələrdə yeniliyə, təkmilləşməyə yol açdı. Yeni Azərbaycan Partiyasının şanlı Qələbəmizin reallıqları fonunda keçirilən VII qurultayında yeni tərkibin formalaşması yeni vəzifələrin öhdəsindən daha yüksək səviyyədə gəlməyə stimul oldu. Mehriban xanım Əliyevanın Yeni Azərbaycan Partiyası Sədrinin Birinci müavini seçilməsi bu vəzifələrin günümüzün tələbləri səviyyəsində uğurla həyata keçiriləcəyinə inamı artırdı. Ölkəmizdə gedən bütün proseslərin mərkəzində dayanan, zəngin təcrübəyə, böyük inama və etimada malik olan Yeni Azərbaycan Partiyası hər addımında yeniləşməyə, təkmilləşməyə açıq olduğunu təsdiqləyir, partiyanın qəbul etdiyi qərarlar, irəli sürdüyü təşəbbüslər ümumilikdə Azərbaycanın daha güclü dövlətə çevrilməsinə, xalqımızın rifah halının daha da yaxşılaşmasına xidmət edir.

Vüqar Rəhimzadə diqqəti son üç ilə yaxın dövrdə Azərbaycanın yaşadığı tarixi Zəfərin sevincinə, Qələbəmizin reallıqları fonunda işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinə yönəldib. Bildirib ki, 44 günlük İkinci Qarabağ müharibəsinin gedişi dövründə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xalqa müraciətlərinə diqqət yetirsək böyük mənəvi dəstəyi, həmrəyliyə çağırışı, ən əsası birliyimiz, həmrəyliyimiz əsasında tarixi Zəfərə imza atacağımıza əminliyi görərik. Onun müharibənin gedişi dövründə "Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!" çağırışı harada yaşamasından asılı olmayaraq bütün dünya azərbaycanlılarını daha sıx birləşdirdi, Qarabağımızı, Şərqi Zəngəzurumuzu azad görmək istəyimizi reallığa çevirmək üçün hər kəsi üzərinə düşən vəzifəni yüksək səviyyədə yerinə yetirməyə səfərbər etdi. Bu gün qürurla Qarabağımızın, Şərqi Zəngəzurumuzun dirçəlməsindən danışırıq. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev ilə birgə birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş ərazilərə səfərləri bərpa-quruculuq işlərinin daha da sürətlənməsində əhəmiyyətli rol oynayır. Bu ərazilərdə təkmil idarəçilik sisteminin yaradılması, bütün işlərin sistemli şəkildə həyata keçirilməsi hədəflərə zamanında nail olmağa əsas yaradır. Bu gün işğaldan azad edilmiş ərazilərimizdə tarixi və dini abidələrimizin bərpası əsas məsələ kimi öndədir. Bu işləri Heydər Əliyev Fondu öz üzərinə götürərək yüksək səviyyədə yerinə yetirir. Qarabağın tacı, türk dünyasının mədəniyyət paytaxtı Şuşada "Xarıbülbül" musiqi festival, Vaqif Poeziya Günləri ənənəsinin bərpasında Heydər Əliyev Fondunun xidmətləri ölçüyəgəlməzdir. Dövlət başçısı İlham Əliyevin tapşırığına uyğun olaraq Fond bu işləri yüksək təşkilatçılıq əsasında yerinə yetirir.

YAP Xətai rayon təşkilatının sədri Heydər Əliyev Fondunun şəhid ailələrinə və qazilərimizə diqqət və qayğısından da bəhs edib. Bildirib ki, onları narahat edən sosial məsələlərin həlli daim diqqətdədir. Qazilərimiz Heydər Əliyev Fondu tərəfindən müalicə və reabilitasiya üçün qardaş Türkiyəyə göndərilir, eyni zamanda, yüksək texnologiyalı protezlərlə təmin edilirlər.

Vüqar Rəhimzadə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın çoxşaxəli və xoşməramlı fəaliyyətini bir yazıda əhatə etməyin mümkünsüzlüyünü bildirərək belə bir ümumiləşdirməni aparıb ki, Onun gördüyü işlər həm Azərbaycanda, həm də beynəlxalq miqyasda yüksək qiymətləndirilir. Mehriban xanım Əliyeva Azərbaycanın ən ali dövlət mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif edilib. Bu, Onun çoxşaxəli fəaliyyətinin, dövlətə, xalqa xidmətinin təqdimatıdır. Mehriban xanım Əliyevanın mərhəməti, xeyirxahlığı, insanlara sevgisi, onlara hər an dəstək olmaq istəyi, problemlərinin həllinə köməkliyi Ona milyonların sevgisini şərtləndirən əsas amillərdir. Dünyanı bürüyən koronavirus infeksiyasına qarşı mübarizə tədbirlərinin ölkəmizdə daha da gücləndirildiyi bir zamanlarda Mehriban xanım Əliyevanın xalqa dəfələrlə müraciət etməsi bu sevginin bariz nümunəsi kimi diqqətdə oldu. Mehriban xanım belə bir inamı ifadə etdi ki, birliyimiz, həmrəyliyimiz sayəsində COVID-19 adlı qorxulu hekayənin geridə qalacağı gün gələcək. Onun bütün məsələlərdə xalqa müraciətlərinin hər biri özündə uğurlu gələcəyimizə inamı ehtiva edir.

YAP Xətai rayon təkilatının sədri Azərbaycanın bugünkü reallıqları əsasında müəyyənləşdirilən hədəflərdən bəhs edərək belə bir əminliyi bir daha diqqətə çatdırıb ki, dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birgə səyləri nəticəsində qalib Azərbaycan daha yüksək zirvələri fəth edəcək, tarixi ədalətin bərpası əsasında Qərbi Azərbaycana da qayıdışımızın şahidinə çevriləcəyik.

---



QURUM RƏSMİSİ AÇIQLADI

## Fermerlər üçün güzəştli kreditlər hansı şərtlərlə təklif olunur?

"Bildiyiniz kimi, Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən fermerlərə müxtəlif istiqamətlərdə maliyyə dəstəyi formaları təqdim olunur. Sözsüz ki, maliyyə alətlərinin xüsusiyyətlərindən asılı olaraq onların şərtləri də bir-birindən fərqlənir. Həmin şərtlərə ödəniş müddətləri, faiz dərəcələri və s. daxildir. Bizim bu gün üçün fermerlərə təklif etdiyimiz kreditləri əsasən üç istiqamətə görə bir-birindən fərqləndiririk". SİA xəbər verir ki, bu sözləri açıqlamasında Aqrar kredit və inkişaf Agentliyinin sədr müavini Mehman İsmayılov deyib. Onun sözlərinə görə, bunlardan birincisi, kənd təsərrüfatı istehsalı vasitələrinin maliyyələşdirilməsidir: "Kənd təsərrüfatı istehsalı vasitələri dedikdə əkin-biçin texnikaları, suvarma sistemləri, müxtəlif aqreqatlara kredit və ya lizinq formasında vəsaitlərin ayrılmasını nəzərdə tuturuq. Kənd təsərrüfatı texnikalarının kreditləşməsi üzrə əsas şərtlər bundan ibarətdir ki, verilən kredit və ya lizinqin müddəti 5 ilədək nəzərdə tutulur. Həmin kredit və ya lizinq vəsaiti üzrə əlavə nəzərdə tutulmuş vəsaitlər dövlət tərəfindən qarşılanır".

"İkinci bir istiqamət mikrokreditlərin verilməsindən ibarətdir. Burada 15 min manatadək sırf kənd təsərrüfatı sahəsində kiçik ailə-fermer təsərrüfatları və ya fermerlər üçün ayrılan kredit məbləğindən söhbət gedir. Bu kreditlərin illik maksimal faiz dərəcəsi 12-dir. Təbii ki, məbləğ az olduğuna görə müddətlər də bir qədər qısadır. Bu kredit növü 3 ilədək qısa bir müddətdə verilir. Digər bir istiqamət isə 200000 manatadək nisbətən orta və iri məbləğli, müxtəlif kənd təsərrüfatı təyinatlı aşağı faizli kreditlərin verilməsindən ibarətdir. Bu növ kreditlərdə müddət əsasən 3-5 ilədək olur. Maksimum faiz dərəcəsi 7-dir. Ümumilikdə bu kreditlərdə məbləğ daha böyük olduğu üçün ödəmə müddəti də daha uzun olur",- deyə o əlavə edib.

***Ləman Sərraf***

# Gültəkin Hacıbəylidən iddia: “Əli Kərimli bomba partladacaq”

***Müxalifət düşərgəsində təmsil olunan partiya sədrləri siyasətdə vurnuxub mənasız açıqlamalar vermək, sosial şəbəkələrdə ironiya ilə qarşılanan statuslar paylaşmaqla məşğuldur. Yəni, ciddi bir layihə, əsaslı ideya ortaya qoya bilmirlər. Bu da onların siyasi arenada qara zolaqdan çıxa bilməməsinə gətirib çıxarır. Düzdür, özlərinə madd imkanlar qazandıra biliblər. Lakin bu fəaliyyət onları cəmiyyətin gözündən salıb ittiham obyektinə çevirib. Yenə də istiqamətlərini dəyişmirlər. Yerli və xarici məkrli qüvvələrlə əlaqələrini, əməkdaşlıq münasibətlərini davam etdirirlər. Sədrlik kreslosunu da, məhz buna görə tərk etmək istəmirlər.***





Dəfələrlə sübuta yetirilib ki, Əli Kərimli, Cəmil Həsənli, Tofiq Yaqublu və digərlərilə iş birliyinə getməklə onlardan maliyyə yardımları alıblar. Ancaq siyasətdə uğur qazana bilməyiblər. Çünki müxalifət başbilənlərindən birinin, bir zaman dediyi kimi, “pul qoyub pul götürmək olar, amma pul qoyub siyasətdə uğur əldə etmək olmaz”.

### Müxalifət özü-özünü korlayıb

Əksər müxalif partiya sədrləri az qala yaşlarının yarısını siyasətə qurban versələr də, qazandıqları, ancaq xalqın ittihamı, tənqid və iradları olub. Ağa qara demək, xalqın sevincinə, hakimiyyətin apardığı uğurlu siyasətə qərəzli yanaşmaq onların həyat tərzidir. Müxalifətin siyasi proseslərdə uğursuzluğa düçar olmasını şərtləndirən əsas amillərdən biri də, onların yanlış baxışlara malik olmaları və milli maraqlara zidd siyasət yürütmələridir. Bu baxımdan, bəzən o fikir vurğulanır ki, dağıdıcı müxalifət elə AXCP sədri Əli Kərimlinin acınacaqlı vəziyyətinə bənzəyir. Düzdür, mövcud ağır vəziyyəti dəyişmək üçün müxalif partiyaların rəhbərliyinə yeni simalar və yeni qüvvələr gəlir. Bir növ şəxsləri bəxtlərini, yəni şanslarını yoxlamağa cəhd göstərənlər adlandırmaq olar. Amma nə yazıqlar ki, əksər hallarda o şəxslər şanssız olurlar, nəinki cəmiyyətdə, ümumilikdə, baş vurduqları siyasət aləmində hörmət və izzət sahibi ola bilmədiklərindən uğursuzluğa düçar olub, kor-peşman əski mövqelərinə qayıdırlar. Səbəb də ondan ibarətdir ki, siyasi arenaya çıxan yeni simalar indiki korlanmış müxalifət funksionerlərinin cərgəsində əriyərək, sıradan çıxır və ya elə onların bir tayı olurlar. Misal üçün müxalifətin yeni siması hesab olunan Seymur Həzini misal olaraq göstərmək olar.

### Seymur Həzinin qarnının ağrısı nədir? Onu və ağasını nə narahat edir?

Seymur Həzi əndrəbadi danışıqları, sərsəm fikirləri, baş-ayaq açıqlamaları ilə tamamilə özünü yandırıb. Bir qədər əvvəl isə belə fikir söylənilirdi ki, S.Həzi sağlam mövqeyi, açıq fikirləri ilə müxalifətin yeni siması ola bilər. Elə ki, lideri Ə.Kərimlinin tədbirlərində bir neçə dəfə iştirak etdi, oldu onun tayı. Başladı sayıqlamağa, cəfəng fikirlər səsləndirməyə. O gün də yazıb ki, sülh danışıqlarının uzanması ilə Ermənistan yenidən Rusiyanın dairəsinə qayıtdı: “Vaşinqton danışıqlarından narazılıq ifadə etmək, əslində, BMT-dəki prosesin davamıdır. BMT müzakirələrində açıq görsənirdi ki, Bakı və İrəvan Kremlin təsirində hərəkət edir. Hər iki tərəf Qərbi günahkar çıxararaq Rusiyanı ”unutdurmaq” istəyirdi. Görünür ki, Kreml yenidən hansısa hərbi toqquşmalara zəmin yaradır”. Birincisi, bu məxluq hələ də başa düşmür ki, Ermənistan onsuz da çar ikinci Aleksandrın dövründən, yəni 1801-ci ildən Rusiyanın qucağında olub və elə rusların siyasi, hərbi dəstəyi ilə bəslənilib. Heç bir zaman Ermənistan Rusiyanın qucağından düşməyib. İkincisi isə, toqquşmalar baş verə bilməz. Çünki Ermənistan o gücə və imkana malik deyil. 44 günlük Vətən Müharibəsindəki “Dəmir yumruq”la verilən dərs, min il sonra belə ermənilərin başlarını qaldırıb, sakit nəfəs almağa imkan verməyəcək. Hansısa məqamda səslərini çıxarmağa cəhd edəcəklərsə, o zaman Azərbaycanın Müzəffər ordusu onların səslərini batıracaq. Necə ki, Fərrux kəndi, Daşbaşı yüksəkliyi, Qaragöl istiqamətində səslərini çıxarmaq istədilər, lakin ordumuz onları məhv edib, on kilometrlərlə kənara tulladı. Bu, məlumdur. Sual oluna bilər, görən, S.Həzinin qarnının ağrısı nədir? Onu və ağasını nə narahat edir?

### Gültəkin Hacıbəyli Əli Kərimliyə də yaltaqlanır

Fikir verilsə məlum olar ki, mövqelərini dəyişib, müxalifət cinahına qoşulan əksər simasızlar eyni ilə S.Həzinin yerişini yeriyirlər. Bir zaman hakimiyyətin alovlu müdafiəçisi olan və yığdığı maliyyə imkanları hesabına bahalı istirahət mərkəzlərində kef edən Gültəkin Hacıbəyli indi dönüb olub qatı müxalifətçi. Həm də Ə.Kərimli kimi desantın yanında dayanıb, onun haqqında tərifli sözlər söyləyir. Hərdən elə tərifli ifadələr seçir ki, eşidənlər və ya oxuyanlar G.Hacıbəyliyə nifrətlərini gizlədə bilmirlər. O gün də paylaşdığı statusunda yazır: “Yaxın vaxtlarda Ə.Kərimli bomba partladacaq”. İlk məqamda elə anlaşılır ki, Ə.Kərimli hərbi düşərgələrə gedib, oyuncaq hesab etdiyi silah-sursatları partladacaq. Ancaq statusun sonunu oxuyub, bitirəndə məlum olur ki, Ə.Kərimli gündəmi dəyişmək üçün nəsə etməyə hazırlaşır. Şübhələr yaranır, ya G.Hacıbəyli Ə.Kərimlini barmağına dolayır, ya da həqiqətən də, ona yaltaqlanır. Çünki şou-biznes aləmində teztez eşidirik ki, filan şou əhli filan vaxtı bomba partladacaq. Sosial şəbəkələrdə də oxumuşuq ki, filan vaxtı filan müğənni və ya rəqqasə xanım şou aləmini bir-birinə vuran performans nümayiş etdirəcək. Həqiqət ondan ibarətdir ki, şou tamaşaçıları elan edilən vaxtı gözləyirlər. Həmin vaxtı nə olacağını şou nümayəndəsi bilir və tamaşaçılara məlum olur. Ancaq Ə.Kərimli özünü siyasətçi hesab edir. Bomba-filan partlatmaq yeqin ki, onluq deyil. Ə.Kərimli yalnız şər və böhtanlar səsləndirə və ya hansısa ləyaqətli vətən oğluna ittihamlar irəli sürə bilər. Bu da ki, adi şeylərdir. Cəmiyyət də Ə.Kərimlinin xarakterinə öyrəncəlidir. Ona görə də, yuxarıda qeyd etdiyim kimi, Azərbaycan ictimaiyyəti dağıdıcı müxalifətə, o cümlədən, Ə.Kərimliyə nifrət edir.

***İ.ƏLİYEV***

# “Zori Balayan azərbaycanlı qız uşağının diri ikən dərisinin soyulması barədə...”

## *Türkiyə mediası Laçın həqiqətlərindən yazır*

***Türkiyənin https://www.manisameydangazetesi.com.tr xəbər portalında “Laçın, ay Laçın” sərlövləli məqalə yayımlanıb. Türkiyə-Azərbaycan Dərnəklər Dostluğu Federasiyasının Dil Tarixi bölməsinin rəhbəri, yazar Seyfettin Ayakyayın qələmə aldığı məqalədə Azərbaycanın Laçın yolu ilə bağlı Ermənistanın dünya ictimaiyyətini aldatmağa cəhd göstərməsindən bəhs edilib.***

Türkiyə Xarici İşlər Nazirliyinin bu məsələ ətrafında yaradılmış süni hay-küylə bağlı Azərbaycanın mövqeyini tam dəstəklədiyi diqqətə çatdırılıb. Müəllif bildirib ki, həmin bəyanatda Laçın yolunda Azərbaycana qarşı tənqidlərin əsassız olduğu, Azərbaycan tərəfinin Laçın vasitəsilə tibbi təxliyənin təmin edilməsi və irrasional yüklərin daşınması üçün digər münasib marşrutların ayrılması üçün səy göstərdiyinin qeyd edildiyi vurğulanıb.

Türkiyə XİN-in Ermənistanı təcavüzkar addımlardan çəkinməyə, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanımağa, Qarabağda yaşamaq istəyən erməni xalqının ehtiyaclarını ödəmək üçün həm Ağdam-Xankəndi, həm də digər alternativ yollardan istifadəyə, Azərbaycanın erməni əhalisi ilə reinteqrasiya səylərini dəstəkləməyə çağırdığı bildirilib.

Diqqətə çatdırılıb ki, Laçın yolu ilə bağlı Ermənistanın təxribatçı yalanına cavab olaraq Azərbaycan Xarici İşlər Nazirliyi rəsmi İrəvanı “BMT Təhlükəsizlik Şurasını manipulyasiya kampaniyası vasitəsinə çevirmək cəhdində” ittiham edib.

Müəllif bildirib ki, Azərbaycan əleyhdarlarının qərəzsizliyinə, ədalət hissinə artıq heç kim inanmır. O, həmin qüvvələrə Ermənistanın 30 illik işğal dövründə Azərbaycan torpaqlarında törətdikləri hərbi cinayətləri, o cümlədən Zori Balayanın azərbaycanlı qız uşağının diri ikən dərisinin soyulması barədə dəhşətli etirafını xatırladıb. “...bu gün Qarabağda azərbaycanlıların kütləvi qəbiristanlıqlarının üstü açılıb. Ermənilər hələ də narkotiklərin daşınması üçün ictimai yaşayış yerlərində gizli şəkildə minalar qoyurlar... Soruşmaq lazımdır: 30 il harada gizlənmisiniz?”.

Laçının qədim Azərbaycan torpağı olduğunu vurğulayan müəllif 10 il sədri olduğu Manisa-Azərbaycan Mədəniyyət Dərnəyi tərəfindən illər öncə təşkil olunan konserti xatırladıb. O, 500 nəfərin qatıldığı həmin konsertdə Azərbaycanın məşhur opera ifaçısı Lütfiyar İmanovun “Ay Laçın” mahnısını oxuyarkən konsertin “ağlaşma yerinə” çevrildiyini qeyd edib: “Laçın ifası 1914–1920-ci illərdə vətənlərindən, İrəvandan, Gümrüdən gəlmiş ailələrin ahnaləsi ilə inildəyirdi...”.

Məqalənin sonunda xəbər verilib ki, TADDEF-in təşkilatçılığı ilə Türkiyənin müxtəlif şəhərlərindən olan 41 jurnalist Azərbaycan jurnalistləri ilə birlikdə mətbuat konfransları keçirəcək və Qarabağ bölgəsi ilə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdıracaq. Məqaləni aşağıdakı linklərdən daha ətraflı oxumaq mümkündür:

https://www.manisameydangazetesi.com.tr/yazarlar/seyfettin-ayakyay/lacin-ay-lacin/1542/

https://egedenge.net/lacin-ay-lacin/

https://kulahaberleri.com/lacin-ay-lacin/

https://www.kanal45.com/lacin-ay-lacin-makale,1095.html.








# Azərbaycanda hüquqi dövlət qurulub, vətəndaş cəmiyyəti bərqərar olub

Təhlil

***Qanunların aliliyini təmin edən hüquqi dövlətin, eləcə də vətəndaş cəmiyyətinin mövcudluğu sağlam cəmiyyətin, demokratiyanın olduğunu təsdiq edir və məhz inkişafa, tərəqqiyə, eləcə də yüksəlişə belə bir cəmiyyətdə ümid edilir. Demokratik cəmiyyətin yeganə ümumi siyasi hakimiyyəti də elə məhz hüquqi dövlətdir və bunun ümumi bəşəri sərvət hesab olunması heç də təsadüfi deyil. Eyni zamanda, nəzərə alınmalıdır ki, dövlət cəmiyyətin, cəmiyyət isə dövlətin köməyi olmadan köklü məsələləri həll edə bilməz və deməli, vətəndaş cəmiyyətinin inkişaf etmiş strukturu olmadan dövlət demokratik ola bilməz.***

Hər bir cəmiyyət hüquqi dövlət qurmaqda, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaqda maraqlıdır və Azərbaycanda qanunun aliliyini təmin edən hüquqi dövlətin qurulması, eləcə də vətəndaş cəmiyyətinin bərqərar olması, beləliklə də, ölkəmizdə demokratiyanın, demokratik cəmiyyətin mövcudluğu bizim üçün də qürurvericidir.

Davamlı olaraq yeniliklərin, dəyişikliklərin baş verməsinə, yeni prinsplərin, meyarların meydana çıxmasına baxmayaraq, istər insanlar, istərsə də dövlətlər üçün vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu bütün dünyada öz aktuallığını qoruyur. Elə məhz Azərbaycanda da insan hüquqlarının müdafiəsi, vətəndaş cəmiyyəti və hüquqi dövlət prioritet məsələ olaraq qəbul edilir. Azərbacan dövlətinin hər bir vətəndaşın qarantına çevrildiyini bütün dünyanın qəbul etməsi heç də təsadüfi deyil və bu ondan irəli gəlir ki, ölkəmizdə vətəndaş cəmiyyətinin söykəndiyi əsas prinsiplərdən biri insan-vətəndaş hüquqlarının və azadlıqlarının təminatıdır. Dövlətimiz vətəndaş hüquqlarının, azadlıqlarının keşiyindədir və ona görə bu məsələ hər zaman diqqət mərkəzində saxlanılır ki, vətəndaş cəmiyyəti və hüquqi dövlət məhz vətəndaşların hüquqları və azadlıqları təmin edildiyi zaman mövcud olur.

"Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Haqqında Konstitusiya Aktı" 1991-ci il 18 oktyabr tarixində qəbul edilsə də, hüquqi dövlət quruculuğunun həyata keçirilməsi, vətəndaş cəmiyyətinin qurulması orada öz əksini tapsa da, bu istiqamətdə konkret işlərə, əməli tədbirlərin görülməsinə məhz Azərbaycan xalqının təkidli tələbi ilə Ümummilli Lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı və rəhbərliyi ilə başlanıldı. Bu baxımdan cəsarətlə deyə bilərik ki, digər istiqamətlər kimi, ölkəmizdə vətəndaş cəmiyyətinin, eləcə də hüqiqu dövlət quruculuğunun da əsasını məhz Ulu Öndər Heydər Əliyev qoydu. "Azərbaycan Respublikasında demokratik hüquqi dövlət qurulmalıdır. Azərbaycan Respublikası demokratiya yolu ilə getməli, heç vaxt totalitar sistemə, kommunist rejiminə qayıtmamalıdır. Azərbaycan Respublikasında siyasi plüralizm hökm sürməlidir. İnsan, söz, din, dil azadlığı-bunların hamısı bərqərar olmalıdır. İnsan hüquqlarının qorunması bizim əsas məqsədlərimizdən biri, dövlət orqanlarının, hüquq-mühafizə orqanlarının əsas vəzifələrindən biri olmalıdır. Dövlətin hüquqları da qorunmalıdır. Biz iqtisadiyyatda köklü islahatlar aparıb, bazar iqtisadiyyatına keçməliyik. Bizim borcumuz bütün Azərbaycanın simasını dəyişməkdir. Azərbaycanı inkişaf etmiş, sivilizasiyalı, demokratik prinsplərlə yaşayan bir dövlətə, cəmiyyətə çevirməliyik", deyə bəyan edən Ulu Öndər dövlətin möhkəmlənməsi, yüksəlişi üçün hüquqi dövlət quruculuğunun, demokratik cəmiyyət qurmağın, islahatların aparılmasının, bazar münasibətlərini tənzimləyən mükəmməl qanunların qəbul olunmasının vacibliyini nəzərə alaraq, bu istiqamətdə uğurlu addımlara imza atdı.

Müstəqilliyə qovuşduqdan sonra demokratik, hüquqi dövlət quruculuğunu Azərbaycan Respublikası özünün inkişaf yolu seçdi, amma bu dövlət quruculuğu prosesi heç də asan başa gəlmədi. Çünki müstəqilliyinin ilk illərində Azərbaycan öz tarixinin ən mürəkkəb dövrlərindən birini yaşayırdı və xatırladığımız kimi, 1991-1993-cü illərdə Azərbaycanda hökm sürən xaos, özbaşınalıq, siyasi səbatsızlıq və naşı idarəçilik, vətəndaş müharibəsi təhlükəsi, mövcud vəziyyəti daha da ağırlaşdıran aqressiv separatizm və ərazilərinin bir hissəsinin Ermənistan tərəfindən işğal olunması qarşıda duran həyati əhəmiyyətli bu vəzifələrin yerinə yetirilməsini günü-gündən çətinləşdirirdi. Buna baxmayaraq, müstəqilliyinin ilk kövrək addımlarını atan Azərbaycanda dövlət quruculuğu prosesinə başlanılması ölkədə, ilk növbədə, sabitliyin bərqərar olması həddənindən artıq zəruri addım idi. Məhz belə ağır şəraitdə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev qısa müddət ərzində Azərbaycanda sabitliyi təmin etməyə nail oldu və ölkəmiz qarşısında duran taleyüklü dövlət quruculuğu məsələlərini həyata keçirməyə başladı. İlk növbədə qarşıdurmalar, özbaşınalıqlar, qanunsuzluqlar aradan qaldırıldı, parçalanmaların, vətəndaş qarşıdurmalarının qarşısı alındı, atəşkəsə nail olmaqla ərazilərimizin davam edən işğalına son qoyuldu və bütün istiqamətlərdə, bütün sahələrdə yüksəlişin, inkişafın təməli qoyuldu. Hüququ demokratik dövlət və vətəndaş cəmiyyəti qurmağı özünün başlıca məqsədi olduğunu bəyan edən Ümummilli Lider Heydər Əliyev göründüyü kimi, öz məqsədinə nail oldu və biz bunun əyani şahidiyik. Onun da şahidiyik ki, Ulu Öndərin başladığı dövlət quruculuğu prosesinin məntiqi nəticəsi olan demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin sürətli şəkildə inkişafı, daha geniş şəkildə formalaşması Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ardıcıl surətdə həyata keçirilir, bu proses uğurla davam etdirilir. Əsası, təməli məhz dahi rəhbər, Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan dövlətçilik təliminə uyğun olaraq, milli mənafelərimizin, dövlətçilik maraqlarımızın üstün tutulması Azərbaycan Prezidentinin yürütdüyü siyasətin qayəsini təşkil edir və şahidiyik ki, vətəndaş cəmiyyətinin inkişafına hal-hazırda ölkə rəhbəri, cənab Prezident İlham Əliyev tərəfindən xüsusi diqqət ayrılıb. "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" məhz Azərbaycan Prezidentinin 7 dekabr 2011-ci il tarixli sərəncamı ilə təsdiq olunub və bu, insan, vətəndaş hüquqlarının müdafiəsi sahəsində aparılan ardıcıl, məqsədyönlü siyasətin parlaq nümunəsidir. Bu nümunə isə öz növbəsində təsdiq edir ki, ölkə rəhbərimizin yürütdüyü siyasətin mərkəzində məhz insan amili durur.

Hüquqi dövlətin formalaşması ictimai həyatda köhnəlmiş demokratik stereotipləri aradan qaldırdı və bu da öz növbəsində hüquqi dövlətin, dövlətçiliyin əsasını təşkil edən dövlət hüquq institutlarının formalaşmasının yalnız demokratik şəraitdə mümkünlüyü qənaətinə gəlməyə əsas vermiş oldu. Artıq demokratik cəmiyyət və hüquqi dövlət ideyası bizim vətəndaşların təfəkküründə və şüurunda transformasiya olunmaqda, adaptasiya olunmaqdadır və görünən odur ki, insanlar bunu daha yaxşı dərk etməyə başlayırlar. Müasir dövrdə strateji inkişaf xətti kimi demokratik cəmiyyət quruculuğu və bazar iqtisadiyyatı yolunu seçən Azərbaycan Respublikası dünya təcrübəsini uğurla sınaqdan keçirir, ümumbəşəri dəyərlərdən faydalanır, özünün geniş iqtisadi potensialını hərəkətə gətirmək məqsədilə inkişaf etmiş ölkələrin qabaqcıl texnologiyalarını və maliyyə imkanlarını cəlb edir, onlarla qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini inkişaf etdirir. Bu baxımdan artıq cəsarətlə deyə bilərik ki, vətəndaş cəmiyyəti, hüququ dövlət quruculuğu, yaradılan və inkişaf etməkdə olan demokratik cəmiyyət çoxdandır öz bəhrəsini verməkdədir.

***İnam Hacıyev***



# "Belçika rəsmisi İrəvanda Fransanın süni peyki kimi davrandı"

***"Belçika xarici işlər nazirinin Ermənistana səfəri zamanı səsləndirdiyi bəyanatlar və təmasları zamanı nümayiş etdirdiyi ritorika hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplərə ziddir. Əslində Avropa İttifaqı Şurası tərəfindən təşkil edilən Bürssel formatının məqsədlərini təşviq etməli olan Belçika rəsmisi İrəvanda daha çox Fransanın süni peyki kimi davrandı. Bakıda Azərbaycan və Ermənistan arasında "tarixi fürsətdən və dialoqdan yararlanmağın zərurətindən" danışan nazir Hadija Labib İrəvanda erməni faşizm ideologiyasına bütün mümkün formalarda dəstək verdi. İşğalçı ordunun fərariləri ilə az qala müharibə qəhramanları kimi davranmaqla belçikalı nazir əslində ölkəsinin ümumbəşəri dəyərlərə nə qədər "sadiq" olduğunu və əslində Brüsselin dünyaya Parisin gözü ilə baxdığını özü də istəmədən ifşa etmiş oldu". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Bəhruz Məhərrəmov deyib.***

Onun sözlərinə görə, Belçika region dövləti deyil, bölgəmizlə faktiki olaraq tarixi-siyasi bağı yox səviyyəsindədir: "Aydındır ki, regionun artan geosiyasi əhəmiyyəti fonunda Belçikanın da maraqları var, amma təəssüf ki, Brüssel kommunikasiyalara illərdir ki, yanlış yerdən başlayır, Qafqaza sivil dövlət kimi qapıdan yox, bacadan giməyə cəhd edir.

Biz Belçika ilə qlobal müstəvidə bərabərhüquqlu əməkdaşlığa, ticarət dövriyyəsinin artırılmasına, Azərbaycana Belçika investisiyasının cəlb edilməsinə və s. şaxələndirilmiş əməkdaşlığa hazırıq. Lakin ilk növbədə Brüsseldə buna hazır olmalıdırlar. Biz Azərbaycana münasibətdə Brüsseldən xüsusi yanaşma tələb etmirik, Belçika ilk növbədə beynəlxalq hüquqa, beynəlxalq hüququn prinsiplərinə, BMT Nizamnaməsinə, BMT-nin məqsəd və prinsiplərinə hörmətlə yanaşmalı, reallıqları öz adı ilə çağırmağı bacarmalıdır. 30 illik işğala işğal və təcavüz deməli, Azərbaycanın qələbəsini regionda beynəlxalq hüququn təntənəsi, BMT qətnamələrinin icrası kimi qəbul etməlidir. Bu halda biz Brüsselin xəbis niyyətlər güddüyünə yox, regionda həqiqətən sülh arzuladığına inana bilərik. Amma görünən odur ki, Belçika Ermənistanın bir an öncə özünə gələrək 2020-ci ilə qədərki status-kvonu bərpa etməsini arzulayır. Təbii ki, bu da mümkünsüzdür".

Deputat sözlərinə davam edərək bildirib ki, nə Belçika özü, nə Fransa, nə də şər blokun hər hansı üzvü Azərbaycanın formalaşdırdığı reallığın axarını dəyişə, İrəvanı dalandan qurtara bilməz: "Bəli, biz dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərməyi ali niyyət kimi bəyan etmişik, amma eyni zamanda yaxın tarix göstərir ki, bu ideallar naminə, sülh və təhlükəsizlik naminə, suveren haqlarımız naminə istənilən müstəvidə, istənilən beynəlxalq hüquq subyekti ilə anladığı dildə danışmaq güc və imkanındayıq".

***Ləman Sərraf***

# İrəvan müharibəyə hazırlaşır?

## *Rusiyalı ekspert: "Ən pis ssenariləri, o cümlədən hərbi-siyasi fors-majorları təhlil etmək kifayət qədər həyəcanvericidir"*

***"İrəvan üçün Qarabağ uğrunda yeni müharibə gözlənilən hadisədir". Bu fikirləri rusiyalı hərbi ekspert, "Milli müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko özünün teleqram səhifəsində paylaşıb.***




Onun sözlərinə görə, analizlər göstərir ki, Ermənistan tərəfi mümkün silahlı münaqişəni real hesab edir. Ona görə də baş verən hər şey silahlı münaqişənin ola biləcəyinə işarədir: "Bütün bunlar Ermənistan ordusunun Hindistan və İrandan silah, o cümlədən kamikadze PUA-lar, çoxsaylı reaktiv yaylım atəş sistemləri və digər silah növləri alması fonunda baş verir".




### "Ermənistan davamlı olaraq münasibətlərin sülh yolu ilə həlli imkanlarını bağlayır"

Hərbi ekspert daha bir reallığı da qeyd edib ki, Ermənistan Azərbaycan üzərində bundan sonra heç vaxt hərbi üstünlüyə nail ola bilməyəcəyini başa düşsə də, hələ də yeni münaqişəyə hazırlaşdığını sərgiləyir.

Korotçenkonun sözlərinə görə, Ermənistan davamlı olaraq münasibətlərin sülh yolu ilə həlli imkanlarını bağlayır. Yəni, arxa planda sülhə qarşı revanşizm planlarını qurur: "Təəssüflər olsun ki, Rusiya, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin bu yaxınlarda keçirilən görüşündə əldə olunan razılaşmaların nəticə vermədiyini və İrəvan, o cümlədən Qarabağdakı separatçılar tərəfindən qarşısının alındığını görürük. Razılaşmadan praktiki həyata keçirməyə qədər məsafə çox böyük ola bilər. Göründüyü kimi, Ermənistanda revanşist qüvvələr kifayət qədər təsirlidir. Qarabağ separatçılarının liderləri arasında danışıqlar aparmaq iqtidarında olmayan, dialoqa və Azərbaycanın hüquqi-siyasi məkanına reinteqrasiya məsələlərinə praktiki, ağlabatan yanaşmaya qadir olmayan insanlar var".

Politoloq sülh şansının hələ də qaldığını bildirib, lakin sülhün əldə olunmayacağı halında müharibənin qaçılmaz olacağını bildirib. Onun sözlərinə görə, Ermənistan prosesi kər vəchlə uzatmağa çalışır. Ancaq rəsmi Bakı da İrəvanın oyunbazlıqlarına səbir etmək düşüncəsində deyil.

İqor Korotçenko bu xüsusda Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatını xatırladıb: "Təbii ki, yeni irimiqyaslı toqquşmaların baş verməməsi mümkündür. Prezident İlham Əliyev çıxışlarında vurğuladı ki, onun təklif etdiyi beş sülh prinsipi əsasında bu ilin sonuna kimi Ermənistanla sülh müqaviləsi imzalamaq şansı var. Hansı şansların daha çox olacağını - sülh və ya silahlı münaqişə üçün - biz vəziyyətin inkişafı prosesində artıq öyrənəcəyik".

Hərbi ekspert bir daha bildirib ki, ümumilikdə, ən pis ssenariləri, o cümlədən hərbi-siyasi fors-majorları təhlil etmək kifayət qədər həyəcanvericidir.



### Onların dadına nə vasitəçilər, nə də digər havadarları çata bilməyəcək

"Bu baxımdan, Rusiya öz vasitəçilik roluna sadiq qalır və Bakı ilə İrəvanın mövqelərini yaxınlaşdıra bilməsi üçün əlindən gələni edəcək. Təəssüf ki, erməni isteblişmentində heç də hamı buna hazır deyil", - deyə o öz şərhində qeyd edib.

Görünən isə budur ki, Ermənistan belə davam edərsə, günah Azərbaycanın üzərində deyil, bilavasitə İrəvanın üzərində olacaq. Lakin sonrakı proseslər, yeni müharibə ehtimalının artması revanşçı qüvvələrin 100%-lik sonu olacaq. Onların dadına nə vasitəçilər, nə də digər havadarları çata bilməyəcək.

**Afət Tahirqızı**





Mətanət Məmmədova

# MUŞTULUQ: iki kitab oxuyan gördüm...

***Əvvəl gözlərimə inanmadım, lakin diqqət edəndən sonra... Muştuluğumu verin, metroda qatarın mən olduğum vaqonunda bir yox, iki nəfər kitab oxuyurdu. Şükürlər etdim. Və bu mənzərə qarşısında getdim o illərə...***

Bəzən kitab oxuduğumuz o illərin o unudulmaz günlərini elə həsrətlə xatırlayıram ki... Nə qədər kitab oxuyurdıq, İlahi... Günlərimiz kitabxanalarda keçirdi. İki gündən, üç gündən bir kitab alıb evə gətirirdik. Bizə hansısa bir iş tapşıran valideynlərimizdən oğurlanıb mütaliə edirdik. Dərslərimizi hazırladıqmı, işimiz gizlində-aşkarda, orada-burada ancaq kitab oxumaq olurdu. Kitablar da o qədər maraqlı idi ki, bitirmədən gözümüzə yuxu getmirdi. Dəfələrlə "Ay bala, o işığı söndürün, yatın, ta gecdir",-deyən ata-anamıza hər dəfə "Yaxşı, indicə söndürürük",-deyərək gecə yarısı kitabı bitirib, sabah yenə kitabxanaya gedir, yeni kitablar alırdıq. Desəm ki, kitabxanalarda ta oxunmamış kitab qoymamışdıq qala, ucadan gülənlər olacaq. Qoy olsun. Ancaq, vallah, belə idi.

Bir də ki, bizim dünənimizə kimsə gülərsə, biz nə yaxşı onun bu gününə gülməyək?.. Biz gözümüzü kitabdan ayırmırdıq, onlar telefondan ayırmır. Bizə "Ay bala, bu qədər kitab gözlərinizi kor edəcək" deyirdilər, onlara "bu telefonlar gözünüzü kor edəcək" deyirlər. O vaxt əksəriyyət başı aşağı kitab oxuyurdu, indi haradayıqsa- evdə, küçədə, nəqliyyatda, orada əksəriyyətin başı aşağı, gözü telefondadır. Yaxşı, biz kitab oxuyurduq, bəs onlar nə edir başı aşağı? Vallah, düzü, bilmirəm günün bu qədər saatını orada nə axtarırlar. Ancaq həqiqətən çox maraqlıdır nə axtardıqları. Axşamadək barmaqlar bir saniyə dincəlmir: axtarır, yazır, pozur... Bircə onu bilirəm ki, barmaqlar nə qədər işləyirsə, beyin bir o qədər yorğun düşür. Lakin kitab oxuyarkən beyin dincəlir, zehin açılır.

Mətləbdən uzaqlaşmayaq. Metroda son vaxtlar görmədim mənzərə, eyni vaqonda iki nəfəri kitab oxuması məni o qədər heyrətləndirdi ki, tanış adam axtarırdım ki, bu münasibətlə ondan muştuluq istəyim. Lakin tapa bilmədim və yenidən xəyala daldım: o vaxtlar elə bu metroda kitab oxuyanlar çox idi. Nə oldu görəsən, niyə kitablar qatlanıb bir kənara atıldı? Bir andaca kitabların o möhtəşəm ətri gəldi burnuma. Harada qaldığımızı bəlli etmək üçün qatladığımız səhifələr... Saxlanc yerimiz olan səhifələr... Orada saxladığımız şəkillər, quruyub səhifələrin arasında özünə yer edən xatirələr dolu güllər... Bəlkə indi də hansısa kitabxanada kitabların arasındaca qalır onlar. Kitabxanalarda digər "yaşayanlar" kimi.

Görəsən niyə kitabları telefonlara dəyişdik? Telefonlar da o kitablar kimi saxlanc yeri ola biləcəkmi? Yəni içindəki minlərlə şəkilləri, xatirələri əbədi saxlaya biləcəkmi? Yoxsa bir an internet itərsə, şəkillər də, xatirələr də itəcəkdir. Ən əsası isə görəsən kitabların insana verdiklərini 100 il bundan sonra telefonlar verə bilərmi?

Elə bu düşüncələrlə o illərlə bu illər arasında var-gəl edərkən qatar stansiyaya çatdı, gənclər kitablarını çantalarına qoyub ayağa qalxdılar. Bu, çox gözəl bir mənzərə idi. Çox qısa çəksə də, həqiqətən, gözəl mənzərə...

ARAŞDIRMA



# Dünyanın 2 cəbhəsi: Zənginlik və yoxsulluq uçurumu ilə bölünmüş bəşəriyyət

*1 afrikalı uşağın acından ölməməsi üçün ayda 35 dollar tələb olunduğu dünyanın hərbi büdcəsi 1,5 trilyondur. Belə olan halda bəşəri humanizmdən danışmağa dəyməz*

BMT və digər beynəlxalq təşkilatlar mütamadi olaraq dünyada yoxsulluq səviyyəsi və insan yaşayışı üçün ən yaxşı və ən pis şəraitə malik dünya ölkələrinin reytinq cədvəlini tərtib edirlər. Dünyanın inkişaf etmiş ölkələrinin ifrat zənginliyi fonunda onlarla yoxsul ölkə, aclıqdan və xəstəlikdən əziyyət çəkən yüz milyonlarla insan var. Beynəlxalq tədqiqatçılar yoxsul ölkələrin problemlərinin əsasən həmin zəngin ölkələrin ucbatından yarandığını qeyd edirlər. Bə dünyada həqiqi vəziyyət necədir? Kim neçə yaşayır?

### Yoxsulluq həddi necə müəyyənləşdirilir?









Məlum olduğu kimi, bütün dünyada yoxsulluq səviyyəsi Dünya Bankının təklif etdiyi metodologiya əsasında müəyyənləşdirilir. Bu metodologiyaya əsasən, gündəlik gəliri 2 dollardan aşağı olanlar ifrat yoxsul hesab olunurlar. Lakin dünyada gündəlik gəliri 1 dollardan aşağı olan on milyonlarla insan var.

Bir çox hallarda bu metodologiya düzgün hesablama üçün kifayət etmir. Çünki elə ölkələr var ki, orada orta aylıq əmək haqqı 60 dollardan aşağıdır. Amma elə ölkələr var ki, orada 60 dollar heç gündəlik tələbatı ödəmir. Yəni, elə ölkə var ki 2 dollara 1 çörək belə düşmür, elə ölkə var ki, 1 günlük minimum ərzağı təmin etmək mümkündür.

Rəsmi məlumata görə, Azərbaycanda yoxsulluğun azaldılması və davamlı iqtisadi inkişaf üzrə Dövlət Proqramının icrası nəticəsində ölkədə yoxsulluğun həddi 5 faizə düşüb. Dövlət rəsmilərinin söylədiklərinə görə 2030-cu ilədək ölkədə yoxsulluq ləğv olunacaq. Xatırladaq ki, Azərbaycan Respublikasında 2023-cü il üçün yaşayış minimumu 240 manat müəyyənləşdirilib. Bu 4 nəfərlik ailə üçün aylıq 1000 manat gəlirin olması deməkdir. Lakin hələlik ölkəmizdə bir çox ailələr bu qədər gəlir əldə edə bilmir.

### Ölkələri ayıran zənginlik və yoxsulluq uçurumu getdikcə dərinləşir

1 milyard ac və yoxsul insanın yaşadığı dünyada yaşayış üçün ən əlverişli və zəngin ölkələrdən danışarkən yoxsul ölkələrin problemlərinə də toxunmaq lazım gəlir. Müasir dünyanın qarşılaşdığı ən böyük problemlərdən biri də yoxsulluq və aclıqdır.

Təxmini hesablamalara görə, dünya əhalisinin 15-20 faizi, başqa sözlə 1 milyard insan, o cümlədən 300 milyon uşaq aclıqdan əziyyət çəkir. Dünyada hər il 50 min insan kəskin aclıq nəticəsində ölür. Qlobal Yoxsulluğa dair göstəricilərə əsasən ifrat yoxsulluqdan hər gün dünyada 30 min uşaq vəfat edir. 11 milyon uşaq isə 5 yaşı tamam olmadan dünyasını dəyişir.

Dünyada varlı və kasıb dövlətlər, eləcə də insanlar arasında fərq kəskin surətdə artır və ildən-ilə böyüyür. 1960-cı ildə dünyanın zəngin dövlətlərinin 20%-nin gəlirləri ilə yoxsul ölkələrin 20%-nin gəlirləri arasındakı fərq 30-un 1-ə nisbətində olduğu halda, 1990-cı ildə bu fərq 60-ın 1-ə, 1997-ci ildə isə 70-in 1-ə nisbətində olub. Pandemiyadan sonra bu fərq daha da artdı və hazırda 80-ə qarşı 1-dir.



Statistikadan göründüyü kimi, dünyada gəlir bölgüsündəki disproporsional hədd zəngin ölkələrin imkanlarını genişləndirməkdə və yoxsul ölkələri isə təhdid etməkdədir.

### Yer kürəsinin potensialından səmərəli istifadə olunsaydı

Alimlər hesab edirlər ki, təbii ehtiyatlardan səmərəli istifadə olunacağı halda Yer kürəsi indikindən dəfələrlə çox insanı yedirdə bilər. Nə qədər inandırıcı olmasa da, onlar bu rəqəmin 50 milyard olduğunu bildirirlər. Hazırda təkcə ABŞ və Böyük Britaniyada zibilliklərə atılan ərzaqla 1 milyard insanı aclıqdan qurtarmaq mümkündür. Bəzi hesablamalara görə, hazırki qlobal ərzaq istehsalı düzgün və ədalətli bölüşdürülsə 10 milyarddan artıq insanı təmin etmək gücündədir. Lakin qeyri-bərabər paylanma, israfçılıq buna imkan vermir.

Yoxsulluğun bir sıra səbəbləri var. Ərzaq qıtlığına səbəblər arasında təbii fəlakətlərin, iqlim problemlərinin də rolu var, digər tərəfdən bir sıra ölkələrdə müharibələr, münaqişələr də buna təsirsiz ötüşmür.

Məlumdur ki, bu münaqişələrdə müəyyən xarici qüvvələrin də rolu böyükdür. Tarix boyu dünyanın enerji mərkəzlərində hərbi qarşıdurmalar, iğtişaşlar baş verib. Böyük transmilli şirkətlərin qitələr, materiklər üzrə müəyyən strategiyaları var.

Lazım olan vaxtı etnik münaqişələri alovlandıra bilir, istədiyi vaxt da yatırda bilirlər. Sözügedən münaqişələrin nəticəsidir ki, istər enerji daşıyacıları, istərsə də digər təbii ehtiyatlara malik ölkələrdə aclıq və səfalət hökm sürür. Belə bir halda dünyada ədalətli idarəetmə fəlsəfəsi meydana gəlir. Bu fəlsəfə də ondan ibarətdir ki, insanlar ölkənin, dünyanın ədalətli idarə olunmasında iştirak etməyə can atırlar.

### Kasıb ölkələr qəsdən müasir texnologiyadan uzaq saxlanılır

Yoxsulluq coğrafiyasına diqqət yetirdikdə belə bir məqam nəzərə çarpır: bu ölkələr ya kənd təsərrüfatı, ya da hasilat sənayesi üzrə ixtisaslaşıblar və müasir texnologiyalar əldə etməyə çətinlik çəkirlər.

Müasir texnologiyalı dövlətlər istənilən halda bu texnologiyanın başqa ölkəyə verilməsində maraqlı olmur. Tez-tez eşidirik ki, ABŞ və dünyanın digər iri dövlətləri kasıb ölkələrə kredit verir.

Kreditlərin strukturuna baxanda görürük ki, bu kreditlər yalnız müəyyən əmtəələrin alınmasına verilir, məsələn ağır sənaye məhsulları.

Bu əmtəələr də kredit verən iri dövlətlərdə istehsal olunur. Bir sözlə onların verdikləri pullar faizlə birlikdə özlərinə qayıdır. Faktiki olaraq özləri öz şirkətlərinə vəsait verərək dövlət sifarişlərini həyata keçirirlər. Kasıb ölkələr Qərbin bu siyasətinin qurbanı olmaması üçün isə təhsilə və elmə ayırdığı pulu artırmalıdırlar.

Güclü ölkələr zəif ölkələrə öz sənayelərini yaratmaması üçün hər cür maneə törədirlər. Çünki, bu halda onlar ucuz xammal ölkəsi olmayacaq və öz xammallarını özləri isyehsal edəcəklər. Bu da ABŞ və digər iri kapitalist ölkələrinə sərf etmir. Çünki onlardakı rifah səviyyəsi məhz bunun üzərində qurulub. Məsələn, təkcə Fransa yalnız Afrikadakı 14 faktiki müstəmləkəsindən ildə yarım trilyon gəlir əldə edir.

### Yoxsulluğun daha bir səbəbi dövlətlərin sürətli silahlanmasıdır

Hesablamalara görə, dünya ölkələrinin hərbi büdcəsi 1,5 trilyon dollardan çoxdur. Bunun yarısı təkbaşına ABŞ-ın payına düşür. Bir afrikalı uşağın acından ölməməsi üçün isə ayda 35 dollara ehtiyac var. Yalnız ABŞ hərbi büdcəsinin maksimum 10 faizi qlobal aclığa son qoymaq gücündədir. Belə olan halda dünyaya demokratiyadan, humanizmdən nağıl danışmaq olmaz.

Hazırda dünyada bəzi qlobal qüvvələr hərbi münaqişələrin baş verməsində katalizator rolunu oynayırlar. Təbii ki, bütün bunlar müəyyən qüvvələrə xidmət edir, əsasən də silah istehsal edən qüvvələrə.

Müharibə və səfalət işərisində olan bir ölkə qonşuluqda yaşayan ölkə üçün də təhdiddir. Məsələn, Suriyada və İraqda törədilən terror və müharibədən sonra 5 milyon insan Türkiyəyə üz tutdu və bu ölkədə sosial vəziyyəti ağırlaşdırdı. Eyni sözləri Ukrayna haqda da demək olar. Ərazisi NATO ilə Rusiyanın qarşıdurma meydanına çevrilən bu ölkədən milyonlarla insan qaçqın kimi Avropa ölkələrinə sığındı.

Problemlər böyük dövlətlərin qarşıdurması ilə deyil, anlaşması ilə həll olunsa, təbii ki, dünyada aclıq və səfalət də aradan qalxar. Dünyanın potensialı hələ tam tükənməyib. Müəyyən proqramlar həyata keçirməklə, ədalətli qlobal sistem qurmaqla bu problemləri aradan qaldırmaq mümkündür.

***Elçin Bayramlı***
***Sağlam Cəmiyyət Hərəkatının rəhbəri***

**P.S.** *Dünyada aclıq və yoxsulluqdan hər dəqiqədə 1 ana, hər saniyədə isə 1 körpə dünyasını dəyişir. Bəşəriyyətin reallığı budur*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

SON SƏHİFƏ
SƏS
26 avqust
2023-cü il

# Boşandıqdan neçə müddət sonra əmlak bölgüsü üçün müraciət edə bilərik?

***"Qanunvericiliyə əsasən, ailə mübahisələri (nikahın pozulması, aliment tələbi, uşaqların qəyyumluğu və s.), əmək mübahisələri, kommersiya və əmlak mübahisələri üzrə məhkəməyə müraciət etməzdən öncə mediasiya prosesindən keçmək məcburidir". Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyinin sədri Fariz Əkbərov deyib.***





Onun sözlərinə görə, boşanma zamanı sonra yaranan və uzunsürən məhkəmə mübahisələrinə səbəb olan problemlərdən biri də əmlak bölgüsüdür: "Azərbaycan Respublikasının Ailə Məcəlləsi ər-arvadın əmlakına münasibətdə onların əmlakının ümumi birgə mülkiyyəti prinsipini nəzərdə tutur. Ər-arvadın ümumi birgə mülkiyyəti dedikdə, nikah müddətində ər-arvadın əldə etdiyi əmlak nəzərdə tutulur.



Əlbəttə, bu onlar arasında fərqli qaydalar nəzərdə tutuan razılaşma olmadığı halda keçərlidir. Birgə mülkiyyətə tərəflərin əmək, sahibkarlıq və intellektual fəaliyyəti nəticəsində əldə etdikləri gəlirlər, aldıqları pensiya və müavinətlər, eləcə də xüsusi təyinatı olmayan digər pul ödəmələri həmçinin ümumi gəlirləri hesabına əldə edilən əşyalar daxildir. Nəzərə alınmalıdır ki, əmlakın ər-arvaddan kimin adına əldə olunmasından, yaxud banklarda əmanətin kimin adına və ya kim tərəfindən qoyulmasından asılı olmayaraq nikah dövründə ər-arvadın qazandığı hər hansı sair əmlak onların birgə mülkiyyətindədir.

Tərəflərin birgə mülkiyyətində olmayan əmlakların çərçivəsinin müəyyən edilməsi bölgünün həyata keçirilməsi üçün zəruridir. Belə ki, nikaha girənədək ər-arvaddan hər birinə mənsub olmuş əmlak, habelə onlardan birinin nikah dövründə hədiyyə kimi və ya vərəsəlik qaydasında aldığı əmlak onun mülkiyyətidir. Boşanma zamanı mübahisələndirilən məqamlardan biri də ziynət əşyalarının bölgüsüdür".

Fariz Əkbərov sözlərinə belə davam edib: "Ailə Məcəlləsinin 34.2-ci maddəsində deyilir, ziynət əşyaları istisna olmaqla, fərdi istifadə şeyləri (geyim, ayaqqabı və s.) nikah zamanı ər-arvadın ümumi vəsaiti hesabına əldə edilsə də, ər-arvaddan kimin istifadəsində olubsa, ona məxsusdur. Buradan belə nəticə çıxarmaq mümkündür ki, ziynət əşyaları, şəxsə hədiyyə şəklində verilmişlər istisna olmaqla, kimin istifadəsində olmasından asılı olmayaraq ümumi birgə mülkiyyətdədir və boşanma zamanı bərabər hissədə bölünür.

Qanunvericiliyin təsbit etdiyi digər mexanizm isə şəxsi mülkiyyətdə olan əşyanın hansı hallarda ümumi mülkiyyət hesab oluna bilməsini tənzimləyir. Mülki Məcəllənin 225.4-cü maddəsinə əsasən tərəflərdən birinə məxsus olan əmlak o halda onların birgə mülkiyyəti sayıla bilər ki, ər və ya arvad nikah dövründə həmin əmlakın dəyərini əhəmiyyətli dərəcədə artıran vəsait qoymuş olsun. Əmlakın dəyərinin əhəmiyyətli artırılmasına əsaslı təmir, avadanlığı dəyişdirmə və s. aid edilə bilər".

***Ayşən Vəli***

## BAŞSAĞLIĞI

Məmmədhəsən Məmmədov, Rauf Əliyev, Ceyhun Mustafayev, Əlibala İmanov Yusif Yunusova və Elşad Məmmədova əzizləri

**Şahbacı Məmmədovanın**

vəfatından kədərləndiklərini bildirir və yaxınlarına dərin hüznlə başsağlığı verirlər. **Allah rəhmət eləsin!**


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343**
**7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898**
**8. Ziya LTD – 0124977696, 0503067744**

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Tələbə təqaüdündən vergi tutulurmu?



**AÇIQLANDI**

"Azərbaycan Respublikası Vergi Məcəlləsinə əsasən, dövlət müavinətləri, əvəzsiz dövlət köçürmələri, dövlət pensiyaları, dövlət təqaüdləri, işçilərin sayının və ştatların ixtisar edilməsi ilə əlaqədar olaraq əmək müqaviləsinə xitam verildikdə işçilərə Azərbaycan Respublikasının Əmək Məcəlləsinə müvafiq ödənilən təminatlar, habelə Azərbaycan Respublikasının qanunları və müvafiq icra hakimiyyəti orqanlarının qərarları əsasında dövlət büdcəsinin vəsaiti hesabına fərdi birdəfəlik ödəmələr və ya maddi yardımlar gəlir vergisindən azaddır". Bu sözləri SİA-ya açıqlamasında vəkil Turan Abdullazadə deyib.

Vəkil sözlərinə belə davam edib: "Buna əsasən qeyd etmək olar ki, dövlət tərəfindən ödənilən tələbə təqaüdləri fiziki şəxslərin gəlir vergisindən azaddır".

***Ayşən Vəli***

## "Nar" "Stevie" mükafatına layiq görüldü




"Nar" "Stevie® International Business Awards" beynəlxalq biznes mükafatını qazandı. "Nar" bu mükafatı "Müştəri məmnuniyyəti" nominasiyasında, son 2 il ərzində müştəri xidmətləri sahəsində uğurlarına görə layiq görüldü. Mükafatın müstəqil hakimlərinə "Nar"ın yüksək müştəri məmnuniyyətini təmin etmək istiqamətində həyata keçirdiyi irimiqyaslı layihələr haqqında geniş hesabat təqdim edildi. Şirkətin məsafədən göstərdiyi müştəri xidmətləri, yüksək rəqabət olan Azərbaycan bazarında Müştəri Loyallığı İndeksində (Net Promoter Score) liderliyi beynəlxalq münsiflər tərəfindən xüsusi vurğulanıb.

Stevie® Awards 2002-ci ildə ABŞ-da təsis olunub və dünya üzrə biznes sahəsində fəaliyyət göstərən şirkətlərin və şəxslərin nailiyyətlərini qiymətləndirir və uğurlu nümunə kimi tanıdır. Qeyd ki, "Nar" artıq 2-ci dəfədir bu mükafata layiq görülür.

Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4000**